Günəş Şərqdən doğur!

❒ № 95 (5376), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 2 iyun 2021-ci il (çərşənbə)




## Açıq havada toyların keçirilməsi mümkündür

“Məsafəni gözləmək və stolların normal qaydada düzülməsi ilə mərasim təşkil olunmalıdır”

(Səh.8)

**Günün içindən...**



### “Bölgədəki atəşkəs şəraitində Fransanın hər hansı rolunu görmürük”

Azərbaycan XİN Fransa Prezidentinin Ermənistan baş naziri ilə birgə brifinqində səsləndirdiyi fikirlərə münasibət bildirib

“Öncə vurğulamaq istərdik ki, bölgədə atəşkəs təmin edilir və bunun əsasında Azərbaycan, Ermənistan və Rusiya liderlərinin 10 noyabr 2020-ci il tarixində imzaladığı birgə bəyanat dayanır.

(səh.4)

### MEDİA çap mediasına dəstək layihəsi elan edib

Azərbaycan Respublikasının Mediasının İnkişafı Agentliyi

Agentlik saytlara da maliyyə dəstəyi verəcək

(səh.3)

# Ərdoğandan sülh mesajı



## Türkiyə Azərbaycan-Gürcüstan-Ermənistan üçtərəfli əməkdaşlıq formatlarını dəstəkləyir

(səh.2)

# Allahdan möhlət alan insanlar var

*Qocalar, yaşlı adamların Qarabağa avtobus turlarını təşkil etmək olar*



(səh.9)

### ✓ Türkdilli dövlətlər varlanacaq

Zəngəzur dəhlizinin istifadəyə verilməsi iqtisadi imkanları genişləndirəcək

(səh.4)

### ✓ Ermənistanda vətəndaş müharibəsi gözlənilir

“Rəsmi Moskva bu seçkilərdə nəyi bilirsə onu da edəcək”

(səh.5)

### ✓ Ciddi hazırlıq aparılır

Türkiyənin hərbi bazası Zəngilanda yerləşdirilə bilər

(səh.6)

### ✓ Son sutkada 8 nəfər vəfat edib

Azərbaycanda 176 yeni yoluxma faktı qeydə alınıb

(səh.9)

# Ərdoğandan sülh mesajı

## Türkiyə Azərbaycan-Gürcüstan-Ermənistan üçtərəfli əməkdaşlıq formatlarını dəstəkləyir

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili iyunun 1-də Türkiyəyə səfər edib.

Türkiyə Prezident Administrasiyasında Prezident Rəcəb Tayyib Ərdoğan ilə Baş nazir İrakli Qaribaşvili arasında təkbətək və heyətlərarası görüş keçirilib.



Prezident Rəcəb Tayyib Ərdoğan və Baş nazir İrakli Qaribaşvili birgə keçirdikləri mətbuat konfransında ikitərəfli və regional əməkdaşlığın vəziyyətini və perspektivlərini yüksək dəyərləndiriblər.

Türkiyə ilə Gürcüstan arasında ticarət əlaqələrinin son 14 ildə ən yüksək səviyyəyə çatdığını vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan, bu hədəfin 3 milyard dollar olduğunu qeyd edib. Həyata keçirilən birgə enerji və nəqliyyat layihələrinin əhəmiyyətini yüksək dəyərləndirən Türkiyə Prezidenti bildirib ki, terrorçuluqla mübarizə, beynəlxalq inteqrasiya, ərazi bütövlüyü məsələləri müzakirə olunub. Dövlət başçısı qeyd edib ki, onun ölkəsi Azərbaycan-Gürcüstan-Ermənistan və yaxud Türkiyə-Azərbaycan-Gürcüstan üçtərəfli əməkdaşlıq formatlarını dəstəkləyir.

**"Türkiyə Gürcüstan üçün çox önəmli ölkə və strateji tərəfdaşdır".** Bunu isə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili deyib.

O, Türkiyənin uzun illərdir Gürcüstanın bir nömrəli ticarət tərəfdaşı olduğunu bildirib.

*Hökumət başçısının sözlərinə görə, regionda Bakı-Tbilisi-Qars, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi genişmiqyaslı birgə layihələr həyata keçirilib*: "Gürcüstanın Azərbaycan və Türkiyə ilə sıx əməkdaşlığı, tərəfdaşlığı və ən əsası dostluğu var. İkitərəfli və üçtərəfli formatlarda layihələrin reallaşdırılması üçün yaxşı təməllər mövcuddur".

İ.Qaribaşvili Türkiyə prezidenti ilə görüşdə bölgədəki vəziyyətin də nəzərdən keçirildiyini vurğulayıb. Bölgədə sülhə alternativin olmadığını qeyd edən baş nazir Gürcüstanın bütün məsələlərin danışıqlar yolu ilə həllinin tərəfdarı olduğunu bildirib.

Gürcüstanın hökumət başçısı Türkiyə liderini Tbilisiyə səfərə dəvət edib.

Hər iki lider Azərbaycan, Türkiyə və Gürcüstan arasında əməkdaşlığın real nəticələrindən, eləcə də beynəlxalq enerji və nəqliyyat layihələrindən məmnunluqlarını ifadə ediblər.



## Mehriban Əliyeva Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi İnstaqram səhifəsində 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edib.**

*Paylaşımda deyilir:*

"Bu gün - 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür. Bu nurlu, gözəl gün münasibətilə bütün balaları səmimi-qəlbdən təbrik edirəm! Yer üzündəki hər bir uşağa möhkəm cansağlığı, sevgi, xoş günlər, qayğısız uşaqlıq və xoşbəxt həyat arzulayıram! Uca Tanrı uşaqları bütün qada-baladan qorusun!".

## Almaniya Ukraynanın silah tədarükü ilə bağlı çağırışına rədd cavabı verib



**Almaniya Ukraynanın silah tədarükü ilə bağlı çağırışına rədd cavabı verib.**

APA-nın "Reuters"ə istinadən verdiyi xəbərə görə, bu barədə Almaniyanın xarici işlər naziri Hayko Maas NATO ölkələri XİN başçılarının görüşündən əvvəl jurnalistlərə bildirib.

"Mən inanıram ki, Ukraynanın şərqindəki münaqişə yalnız siyasi vasitələrlə həll oluna bilər. Bu, Ukrayna ilə münasibətlərimizdə əsas yanaşma olaraq qalacaq və heç bir dəyişiklik olmayacaq", - deyə Hayko Maas qeyd edib.

XİN başçısı vurğulayıb ki, ölkəsinin Ukraynaya silah tədarükü münaqişənin həlinə kömək etməyəcək.

*Qeyd edək ki, Ukrayna Prezidenti Vladimir Zelenski Almaniyaya avtomat silahlar, radio avadanlıqlar və zirehli maşınların tədarükü ilə bağlı çağırış edib.*

# Keçmiş üç prezident baş nazirə qarşı...

Ermənistanda növbədənkənar parlament seçkiləri ərəfəsində gərginlik artmaqdadır. Ölkə Baş nazir səlahiyyətlərini icra edən Nikol Paşinyanın tərəfdarları ilə keçmiş prezident Robert Koçaryanın tərəfdarları arasında iki qütbə bölünüb. Eks-prezident Levon Ter-Petrosyanın, sabiq prezident Serj Sarkisyanın müdafiə etdiyi Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru Artur Vanesyanın da tərəfdarları az deyil.



## Seçkilərdən sonra da Ermənistanda vəziyyət gərgin olaraq qalacaq

Avropa yönümlü sayılan və sədri Edmon Marukyan olan "İşıqlı Ermənistan" Partiyasının da tərəfdarları var. Əsas müxalifət sayılan Qaqik Sarukyanın "Çiçəklənən Ermənistan" partiyası da özünü ciddi müxalifət sayır. Daşnaklar, kommunistlər və başqaları da parlament seçkiləri uğrunda yarışa qoşulublar. Bütövlükdə iyunun 20-də keçiriləcək siyasi kampaniyada 26 siyasi partiya və blok qeydiyyatdan keçib. Amma baxışlarına və hədəflərinə görə bunları Paşinyan və Koçaryan qruplarına bölmək olar. Ter-Petrosyan və Edmon Marukyan indiki baş naziri tənqid etsələr də, daha çox Nikolun siyasi xəttini müdafiə edirlər.

**Seçki öncəsi cərəyan edən prosesləri "Şərq"ə dəyərləndirən politoloq Sədrəddin Soltan bildirib ki, Ermənistanın siyasi səhnəsində özlərini Qərbyönlü sayanlarla Rusiyayönlülərin mübarizəsi gedir.** Onun sözlərinə görə, paşinyançılar Qərbyönlü sayılsa da, onlar Kremllə əlaqələrə daha çox üstünlük verirlər. Koçaryançılar isə birmənalı olaraq Rusiyayönlüdür. Onları revanşist də saymaq olar: "Əslində, Azərbaycana münasibətdə keçmiş üç prezidentin və indiki baş nazirin bir-birindən heç bir fərqi yoxdur. İndi Azərbaycan və Türkiyə ilə münasibətlərin qurulmasından danışan Ter-Petrosyanın prezidentliyi dövründə Xocalı soyqırımı törədilib, Azərbaycan torpaqları işğal olunub. Koçaryan və Sarkisyan isə Qarabağda törədilən bütün faciələrin təşkilatçıları və baş icraedicləridir. Nikol Paşinyan bu üçlüyün işğal etdiyi torpaqları Ermənistanın əlində saxlamağa cəhd etsə də, gözləmədiyi şəkildə zərbə aldı. Bununla da Ter-Petrosyan, Robert Koçaryan və Serj Sarkisyandan qalma ordu barədə yayılan mif və qoşun darmadağın oldu. Rusiyasız Ermənistanın mövcud ola bilməyəcəyi bir daha təsdiqləndi. Seçkilərin keçirilməsinə üç həftəyə yaxın müddət qalıb. Ermənistanda siyasi, hərbi, sosial sahələrdə gərginlik yüksələn xətt üzrə davam edir. Ermənistanda sosial vəziyyət hazırda ağırdır və onun seçkilərdən sonra düzəlməyəcəyi ehtimalı az deyil".

*Analitik vurğulayıb ki, Nikol Paşinyan hökumət başına gələndən sonra kabinetin çox ciddi fiqurları və onunla birlikdə hakimiyyət dəyişikliyində iştirak edənlər istefa verdi:* "Əvvəlcə Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru Artur Vanesyan, qurumun başqa bir sabiq direktoru Mikael Ambarsumyan, polis rəisi Valeri Osipyan, Silahlı Qüvvələrin baş qərargah rəisi Onik Qasparyan və Xarici işlər naziri səlahiyyətlərini icra edən Ara Ayvazyanın istefası hökumət daxilində ciddi narazılığın olduğunun göstəricisi sayıla bilər. Onun keçmiş müavini Qaqik Qalaçyan, Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Anna Naqdalyan da tutduqları vəzifədən istefa veriblər. Yerli KİV-in yazdığına görə, istefalar bununla məhdudlaşmayıb. Nikol Paşinyan Azərbaycanla sərhəddəki gərginliyi azaltmaq üçün planını açıqlayandan sonra Xarici işlər və Müdafiə nazirliklərində, hətta Milli Təhlükəsizlik Xidmətində kütləvi istefalar olub. Məlumata görə, Ermənistan xarici işlər nazirinin 4 müavini, habelə Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini Stepan Qalstyan istefa ərizəsi yazıblar".

*S.Soltanın sözlərinə görə, Ermənistan ordusunda da vəziyyət acınacaqlıdır: "Silahlı Qüvvələrin Baş Qərargahının rəisi Artak Davtyanla müdafiə naziri səlahiyyətlərini icra edən Vaqarşak Arutyunyanın münasibətləri gərgindir.* "Joxovurd"un yazdığına görə, ordunun rəhbərliyində fikir ayrılığı var. Qeyri-rəsmi mənbələr bildiriblər ki, Baş Qərargah rəisi A.Davtyan verdiyi əmr və tapşırıqları müdafiə naziri V.Arutyunyanla müzakirə etmir, onunla məsləhətləşmir. Arutyunyan az qala hər gün Rusiyanın Müdafiə naziri Sergey Şoyqu ilə ya görüşür, ya da telefonla danışır. Bütün bu və başqa faktlar Ermənistan ordusunda vəziyyətin sabit olmadığını göstərir. Nəticə etibarilə belə bir hökumətin ordusu Azərbaycanla dövlət sərhədində təxribat törətməyə çalışır, gərginlik yaradırlar. Ölkədəki vəziyyəti Ermənistan-Azərbaycan münasibətləri fonunda tənzimləməyə çalışırlar. Bu isə Ermənistan cəmiyyətində böhranı daha da dərinləşdirir".

**İsmayıl Qocayev**

# MEDİA çap mediasına dəstək layihəsi elan edib

## Agentlik saytlara da maliyyə dəstəyi verəcək

Medianın İnkişafı Agentliyi çap mediasına dəstək layihəsi elan edib.

Qurumdan "Şərq"ə verilən məlumata görə, müsabiqə ictimai-siyasi qəzetlər arasında keçirilir.

Qəzet nömrələrinin qiymətləndirilməsi Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən cəlb edilmiş 3 müstəqil ekspert tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Həftədə bir nömrəsi maliyyələşdirilən qəzetlərin hər birinə aylıq 5 000 manat, həftədə beş nömrəsi maliyyələşdirilən qəzetlərin hər birinə isə aylıq 15 000 manat məbləğində maliyyə yardımı göstəriləcək.

Müsabiqədə qalib elan olunan hər bir qəzet redaksiyasının eyniadlı veb-saytına 3 000 manat məbləğində maliyyə yardımı göstərilcək.

Qalib elan olunan qəzetin baş redaktoru müsabiqəyə müraciət ərizəsində qəzetinin eyniadlı veb-saytını əsaslı yenilələmək niyyətini ifadə etmişdirsə, maliyyə yardımı göstərilən 6 aylıq dövrün birinci ayında ona həmin veb-saytın əsaslı yenilənməsi məqsədilə 5 000 manat məbləğində vəsait ayrılacaq.

Müsabiqədə qalib elan olunan qəzet redaksiyaları Agentlik tərəfindən maliyyələşdirilən hər nömrədə *(həftədə bir nömrəsi maliyyələşdirilən qəzetlər həftədə bir dəfə, həftədə beş nömrəsi maliyyələşdirilən qəzetlər isə həftədə beş dəfə olmaqla)* Qaydalarda göstərilən sahələrdən hər hansı biri üzrə ən azı 500 sözdən ibarət məqalənin dərc olunmasını təmin edirlər.

Maliyyə yardımı göstərilən dövr ərzində qəzetin eyniadlı veb-saytının işçilərinin hər birinin əməkhaqqının minimum məbləği 600 manat təşkil etməli, maliyyə yardımının digər hissəsi isə vebsaytın infrastrukturunun gücləndirilməsi, dil imkanlarının genişləndirilməsi, təhlükəsizliyinin təmin edilməsi və rəqəmsal keyfiyyətinin artırılmasına yönəldilməlidir.

*Maliyyə yardımına əlavə:*

Maliyyə yardımı göstərilən ay üzrə qəzetin yalnız fiziki şəxslərdən ibarət hər əlavə 500 abunəsi üçün aylıq 200 manat, hər əlavə 1000 abunəsi üçün isə aylıq 400 manat məbləğində bonusun verilməsi nəzərdə tutulur;

*Müraciətlərin qəbulu 01 iyun 2021-ci il tarixindən 11 iyun 2021-ci il saat 18:00-dək həyata keçirilir.*

**Medianın İnkişafı Agentliyi onlayn media subyektlərinə (veb-saytlara) dəstək layihəsini də elan edib.**

Müsabiqəyə ictimai-siyasi və idman məzmunlu kütləvi informasiya dərc edən onlayn media subyektləri (veb-saytlar) müraciət edə bilərlər.

İctimai-siyasi və idman məzmunlu kütləvi informasiya dərc edən onlayn media subyektləri (veb-saytlar) arasında müsabiqə ayrı-ayrılıqda keçirilir.

Müsabiqəyə müraciət tələb olunan sənədlərin kağız daşıyıcıda Agentliyə təqdim olunması yolu ilə edilir.

Qiymətləndirmə əsas ümumi domen üzərindən və onlayn media subyektinin (veb-saytın) Müsabiqəyə müraciət etdiyi günədək son 3 aylıq dövr ərzində hər ay üzrə ən yuxarı göstəricili 5 xəbər məzmunlu veb-səhifəsi üzrə aparılır.

Ən yuxarı göstəricili 5 xəbər məzmunlu veb-səhifənin qiymətləndirilməsi Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən cəlb edilmiş 3 müstəqil ekspert tərəfindən həyata keçirilir.

Agentlik tərəfindən maliyyələşdirilən onlayn media subyektlərinin (veb-saytların) hər birinə aylıq 3000 manat məbləğində maliyyə yardımı göstərilir;

- ictimai-siyasi məzmunlu kütləvi informasiya dərc edən onlayn media subyektləri (veb-saytlar) Agentlik tərəfindən maliyyələşdirilən dövr ərzində həftədə bir dəfə Qaydalarda göstərilən sahələrdən hər hansı biri üzrə hazırlanan materialın dərc olunmasını təmin edirlər;

- idman məzmunlu informasiya dərc edən onlayn media subyektləri (veb-saytlar) isə Agentlik tərəfindən maliyyələşdirilən dövr ərzində həftədə bir dəfə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı" sahəsi üzrə hazırlanan materialın dərc olunmasını təmin edirlər.

Maliyyə yardımı göstərilən dövr ərzində onlayn media subyektinin (veb-saytın) müvafiq sayda işçilərinin hər birinin əməkhaqqının minimum məbləği 600 manat təşkil etməli, maliyyə yardımının digər hissəsi isə veb-saytın infrastrukturunun gücləndirilməsi, dil imkanlarının genişləndirilməsi, təhlükəsizliyinin təmin edilməsi və rəqəmsal keyfiyyətinin artırılmasına yönəldilməlidir;

Maliyyə yardımının göstərilməsinə dair müqavilə imzalamış onlayn media subyekti (veb-sayt) həmin müqavilənin qüvvədə olduğu müddət ərzində hər ayın sonu müvafiq maliyyə vəsaitinin hansı istiqamətlərə xərcləndiyini təsdiq edən sənədləri Agentliyə təqdim edir.

*Müraciətlərin qəbulu 01 iyun 2021-ci il tarixindən 11 iyun 2021-ci il saat 18:00-dək həyata keçirilir.*

# Paşinyan gələcəyin "xəritəsini cızır"

## "İctimaiyyətə çatdırır ki, münasibətlərin düşmənlikdən başqa formaları da var və xalqı buna hazırlayır"

**Ermənistanın Baş naziri vəzifəsini icra edən Nikol Paşinyan ölkə vətəndaşlarını Azərbaycanla sərhədlərin delimitasiya və demarkasiyası, habelə regional yolların və kommunikasiyaların açılmasından qorxmamağa çağırıb.**

O bildirib ki, bu yollar Ermənistan iqtisadiyyatı üçün Gürcüstan və İranla olan magistrallar qədər önəmlidir.

"Bu yollarla əcnəbilərin, məsələn, azərbaycanlıların hərəkət etməsi problemdirmi? Siz bilirsiniz, İranın şimalında və Gürcüstanla sərhəddə azərbaycanlılar yaşayır. Ermənistana çox sayda azərbaycanlılar səfər edir. Bu gün də vəziyyət belədir, hərçənd bu barədə açıq şəkildə danışılmır. Ötən 30 ildə də və elə həmişə də belə olub", - deyə



Paşinyan Ararat vilayətinin Aparan şəhərində sakinlərlə görüş zamanı qeyd edib.

Onun sözlərinə görə, Moskvada imzalanmış 9 yanvar 2021-ci il tarixli üçtərəfli razılaşmaya əsasən, ilk növbədə SSRİ dövründə mövcud olan dəmiryolları şəbəkəsi bərpa olunacaq. Avtomobil yollarının açılması məsələsi isə sonradan həll ediləcək .

**Keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov Paşinyanın bu açıqlamasını "Şərq"ə şərh edib: "Digərləri kimi, o da seçkiqabağı mərhələdə müxtəlif bəyanatlar səsləndirir.** Amma deyilənlərin icrası vaxt tələb edəcək. Ümumiyyətlə, məncə, bu mövzu hələ aktual deyil. Paşinyan gələcəyin "xəritəsini cızır". İctimaiyyətə çatdırır ki, münasibətlərin düşmənlikdən başqa formaları da var və xalqı buna hazırlayır. Əlbəttə, əbədi sülh yaransa, düşmən dövlətlər, xalqlar olmayacaq. Beləliklə, kommunikasiyaların bərpası qaçılmaz varianta çevriləcək".

**Kənan**



# Avropa İttifaqı yüksək inflyasiya zonasına daxil olur

**Avropa İttifaqı ölkələrində inflyasiya templərinin bir qədər artması müşahidə edilir.**

Azərtac "Budapest Business Journal"a istinadla xəbər verir ki, may ayında inflyasiyanın səviyyəsi 2,5 faizə yüksəlib. Amma bundan bir ay əvvəl istehlak qiymətlərinin artımı iki faiz səviyyəsində qalmışdı.

Bu, bəlkə də 2011-ci ilin sentyabrından bəri ən yüksək inflyasiya göstəricisidir. Ekspertlər qiymətlərin 2,3 faiz artacağını gözləsələr də, gerçəklik bu qorxuducu proqnozu da üstələyib.

May ayında inflyasiyanın katalizatoru əvvəlki kimi enerji sektoru olub. Avrozonada benzinin qiyməti orta hesabla 28,4 faiz artıb. İqtisadçılar hesab edirlər ki, inflyasiyanın artımı yaxın aylarda da davam edəcək.

# İsmayıllıda dövlət dəstəyi ilə 15 kənd qonaq evi yaradılıb



**Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) sifarişi və Dövlət Məşğulluq Agentliyinin dəstəyi ilə "Odlar Yurdu" Gənclər İctimai Birliyi tərəfindən icra olunan "Kəndlərdə sahibkarlığın və özünüməşğulluğun inkişafı" layihəsi çərçivəsində**

İsmayıllı rayonunda 15 sahibkarlıq obyekti - kənd qonaq evi istifadəyə verilib. KOBİA-dan "APA-Economics"ə verilən məlumata görə, yerli və xarici turistlərə qonaqlama xidməti göstərəcək kənd qonaq evləri İsmayıllı rayonunun Buynuz, Xanəgah, Topçu, Təzəkənd, Sumağanlı kəndlərində və Lahıc qəsəbəsində yerləşir.

Qonaq evləri zəruri avadanlıqlarla təmin olunub.

*Qeyd edək ki, layihənin icrasına 2020-ci ilin sentyabr ayından başlanılıb. Layihənin iştirakçısı olan kənd sakinləri sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən və ya özünü bu sahədə inkişaf etdirmək istəyən şəxslərdir. İştirakçıların seçimi zamanı sosial həssas qrupa aid şəxslərə üstünlük verilib. Layihənin digər üstünlüyü turizm sahəsində 15 mikrosahibkarlıq subyektinin yaradılmasına nail olunmasıdır.*

# Gürcüstanın səhiyyə naziri koronavirusa yoluxub



**Gürcüstanın səhiyyə naziri Ekaterina Tikaradze yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxub.**

APA-nın yerli bürosunun xəbərinə görə, Səhiyyə Nazirliyinin məlumatına əsasən nazir özünü yaxşı hiss edir.

Bildirilib ki, Ekaterina Tikaradze fəaliyyətinə fərdi izolyasiya şəraitində distant qaydada davam edir.

# “Bölgədəki atəşkəs şəraitində Fransanın hər hansı rolunu görmürük”

## Azərbaycan XİN Fransa Prezidentinin Ermənistan baş naziri ilə birgə brifinqində səsləndirdiyi fikirlərə münasibət bildirib

*"Öncə vurğulamaq istərdik ki, bölgədə atəşkəs təmin edilir və bunun əsasında Azərbaycan, Ermənistan və Rusiya liderlərinin 10 noyabr 2020-ci il tarixində imzaladığı birgə bəyanat dayanır. Azərbaycan ərazisində müvəqqəti yerləşən Rusiya sülhməramlı qüvvələri sülhməramlı missiyanı yerinə yetirərək atəşkəsin təmin olunmasına çalışırlar. Bu məsələdə Fransanın hər hansı rolunu görmürük".*

Bu sözləri Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Fransa Prezidenti E.Makronun Ermənistan baş naziri ilə birgə mətbuat brifinqində səsləndirdiyi fikirlərə münasibət bildirilməsi ilə bağlı sualı cavablandırarkən deyib.

L.Abdullayeva bildirib ki, Azərbaycan tərəfi hər zaman bütün hərbi əsirlərin ”hamının hamıya” prinsipi əsasında dəyişdirilməsi mövqeyindən çıxış edib: ”Dəfələrlə bəyan etdiyimiz kimi, Azərbaycanda erməni əsilli hərbi əsir yoxdur, o ki, qaldı üçtərəfli bəyanat imzalandıqdan sonra 26 noyabr 2020-ci il tarixində Azərbaycan ərazisinə göndərilən və burada terror aktı törədən diversant qrupun üzvlərinə, habelə 27 may tarixində Kəlbəcər rayonu istiqamətində ərazimizə daxil olaraq yolların minalanmasına yönələn təxribatçı fəaliyyət cəhdi göstərən kəşfiyyat-diversiya qrupunun üzvlərinə onlar hərbi əsir deyillər.

Ermənistan tərəfindən itkin düşmüş erməni əsgərləri ilə bağlı irəli sürülmüş saxta ittihamlar ilə bağlı qeyd etmək istərdik ki, bu günlərdə Ermənistanda aşkar edildiyi kimi itkin düşmüş erməni əsgərləri morqların birində soyuducuda saxlanılır və bu da Ermənistanda böyük qalmaqala səbəb olub. Azərbaycan isə öz tərəfindən humanitar prinsiplərdən çıxış edərək, 1 600-ə yaxın erməni hərbçisinin cəsədlərini tapıb və bu prosesdə Rusiya sülhməramlıları və Beynəlxalq Qızıl Xaç iştirak edib. Erməni əsgərlərinin cəsədləri qarşı tərəfə təhvil verilib. Lakin hələ 1-ci Qarabağ müharibəsi zamanı itkin düşmüş 4 000-dək azərbaycanlı barədə məlumat bu günədək Ermənistan tərəfindən verilməyib.



Fransa Prezidentinin çıxışında müsəlman abidələrinin də bərpa olunmasına dair fikrini alqışlayırıq. Lakin Fransa Prezidentinin çıxışında istinad etdiyi Dağlıq Qarabağ adı ilə bağlı vurğulamaq istərdik ki, belə bir inzibati ərazi vahidi mövcud deyil”.

Çıxışda istinad edilən birbaşa dialoq məsələsinə gəldikdə, bu artıq baş verir: ”11 yanvar 2021-ci ildə Azərbaycan, Ermənistan və Rusiya liderlərinin imzaladığı bəyanata istinadən baş nazirlərin müavinləri səviyyəsində görüşlər keçirilir və dialoq mövcuddur. Lakin Fransanın bu prosesdə hər hansı rolu yoxdur.

Delimitasiya və demarkasiya prosesinə gəldikdə, bəyan etdiyimiz kimi, Azərbaycan delimitasiya prosesinə başlamağı dəstəkləyir və bu proses danışıqlar yolu ilə öz həllini tapmalıdır.

Bir daha da qeyd etmək istərdik ki, Azərbaycan hərbiçiləri öz doğma torpaqlarında xidmət göstərirlər. Təəssüf hissi ilə qeyd etmək istərdik ki, 1997-ci ildən Fransa həmsədr qismində fəaliyyət göstərsə də Fransa tərəfindən heç zaman Ermənistan qoşunlarının işğal altında olan Azərbaycan torpaqlarından çıxarılması ələqədar çağırış edilməmişdir. Baxmayaraq ki, bu BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələbi idi.

Sərhəd məsələlərinin müzakirələr yolu ilə həll edilməsinə gəlincə bildirmək istərdik ki, Azərbaycan münaqişənin danışıqlar yolu ilə həllinin daim tərəfdarı olmuşdur və 28 il danışıqlar prosesində iştirak etmişdir. Odur ki, Azərbaycan hər zaman müzakirələrə və danışıqlar prosesinə açıqdır.

Fransanın qəti şəkildə regiona qayıtması barədə açıqlama isə anlaşılan deyildir. Fransa həmsədr ölkədir və bu statusda 1997-ci ildən regional proseslərdə iştirak edir. Ona görə də bu açıqlama anlaşılan deyildir.

Sirr deyil ki, Fransa Ermənistana xüsusi rəğbəti vardır, amma Minsk Qrupunun həmsədri kimi bu ölkə rəsmi neytrallığını saxlamalıdır. Ümid edirik ki, həmsədrlik mandatına uyğun olaraq Fransa tərəfindən neytral və qərəzsiz mövqe sərgilənəcəkdir”.

# Türkdilli dövlətlər varlanacaq

## Zəngəzur dəhlizinin istifadəyə verilməsi iqtisadi imkanları genişləndirəcək



*Türkiyə Azərbaycanla və Orta Asiyanın türk cümhuriyyətləri ilə əlaqəni təmin edən yeni nəqliyyat marşrutu açır. Bu türkdilli ölkələrin ticarət və nəqliyyat sahəsində əməkdaşlığının qurulması üçün böyük potensialdır. Bu yeni nəqliyyat marşrutu türkdilli ölkələr üçün çox əhəmiyyətlidir. Yeni nəqliyyat dəhlizinin əhəmiyyəti barədə Milli Məclisin deputatı Vüqar Bayramov "Şərq"ə danışıb.*

Deputat bildirib ki, 44 günlük müharibədən sonra regionda yeni bir düzən formalaşıb. O qeyd edib ki, xüsusən kommunikasiyanın bərpa edilməsi və Zəngəzur dəhlizinin istifadəyə verilməsi yeni əlaqələrin formalaşmasına təkan verəcək: ”Kommunikasiyanın bərpa edilməsi və Zəngəzur dəhlizinin istifadəyə verilməsi ilə bağlı aparılan danışıqlar Azərbaycan-Türkiyə, eyni zamanda digər türkdilli ölkələr arasında yeni kommunikasiya əlaqəsinin formalaşmasına imkan verəcək. Bu, Azərbaycan-Türkiyə arasında quru nəqliyyatın bərpa edilməsi, eyni zamanda türkdilli ölkələrin birləşdirilməsi baxımından da vacib bir layihədir. Nəzərə alsaq ki, söhbət 1,1 trilyon dollarlıq ümumdaxili məhsulu olan regionun, türk dünyasının məhz Zəngəzur dəhlizi vasitəsilə birləşməsindən gedir. Bu da təbii ki, bir tərəfdən regionda beynəlxalq yükdaşımaların həcminin artmasına imkan verəcək. Nəticə etibarı ilə türkdilli dövlətlər bu əlaqələrdə yeni kommunikasiyaların qurulmasından gəlir əldə etmək, iqtisadiyyatlarını daha çox inkişaf etdirmək imkanlarına malik olacaqlar”.

**V.Bayramov qeyd edib ki, yeni nəqliyyat-kommunikasiya dəhlizinin, şərq-qərb beynəlxalq nəqliyyat dəhlizinin inteqrasiya olunması region üzərindən daşınan yüklərin həcminin kəskin artmasına imkan verəcək:** ”Nəzərə alsaq ki, region ölkələri beynəlxalq yükdaşımalarla bağlı vahid siyasət həyata keçirməklə bağlı danışıqlar aparırlar və bir sıra anlaşmalar var. Bu da beynəlxalq yükdaşımalarda regionun payının və rolunun əhəmiyyətli dərəcədə artmasına gətirib çıxaracaq. O baxımdan yeni mərhələdə biz türkdilli ölkələr arasında yalnız nəqliyyat deyil, eyni zamanda iqtisadi əlaqələrin daha da genişlənməsini görə biləcəyik. Həmçinin regionun və bütövlükdə türk dünyasının beynəlxalq yükdaşımalarda payının daha da artmasını müşahidə edəcəyik”.

**Aynurə Pənahqızı**

# Biz mübarizənin önündə olduq

## “Peyvənd millətçiliyi”nə qarşı ölkələr milli səviyyədə deyil, beynəlxalq səviyyədə, birlikdə mübarizə apararaq qalib gələ bilərlər”



*"Peyvəndlərə çıxışla bağlı getdikcə dərinləşən qeyri-bərabərlik narahatlıq doğurur". Bunu Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Assambleyasının 74-cü sessiyasında videoformatda çıxışında deyib. Dövlət başçısı bildirib ki, Azərbaycan bəzi ölkələr tərəfindən ehtiyaclarından bir neçə dəfə artıq peyvənd əldə edilməsini və inkişaf etməkdə olan ölkələri öz əhalisini qorumaq imkanından məhrum etmələrini ictimai şəkildə pisləyir.*

Ölkə rəhbəri qeyd edib ki, davam edən ”peyvənd millətçiliyi” narahatlığa səbəb olur: ”Beynəlxalq hesabatlara əsasən, bu günə qədər dünyada mövcud olan peyvənd dozalarının 82 faizi zəngin ölkələr tərəfindən alınmış, peyvəndlərin yalnız 0.3 faizi azgəlirli ölkələrin payına düşüb. Bu problemin həlli məqsədilə Azərbaycan Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi ilə bağlı qətnamə irəli sürüb. Həmin qətnamə cari ilin mart ayında yekdilliklə qəbul olunub. Bu xüsusda, biz inkişaf etmiş ölkələri və donor təşkilatlarını inkişaf etməkdə olan, xüsusilə ən az inkişaf etmiş ölkələrə dəstək verməyə çağırırıq”. Prezident Azərbaycanda 2 milyon doza peyvənd istifadə edildiyini bəyan edib: ”Biz cari ilin yanvar ayının ortalarından etibarən peyvənd kampaniyasına başlamışıq və artıq 99.94 faizi ”Sinovak”, qalanı isə ”AstraZeneca” və ”Sputnik” olmaqla, 2 milyon doza peyvənd istifadə edilib”. Dövlət başçısı bildirib ki, bu rəqəm əhalimizin 20 faizini təşkil edir: ”18 yaşdan yuxarı bütün vətəndaşlar könüllü olaraq peyvənd oluna bilərlər. Peyvənd olunanlara COVID-19 pasportları təqdim edilir”.

**Millət vəkili Anar Məmmədov ”Şərq”ə deyib ki, ”peyvənd millətçiliyi”nə qarşı ölkələr milli səviyyədə deyil, beynəlxalq səviyyədə, birlikdə mübarizə apararaq qalib gələ bilərlər.** Deputatın sözlərinə görə, koronavirusun ilk üzə çıxdığı dövrdən etibarən Azərbaycan ona qarşı ən effektiv mübarizə aparan ölkələrdən olub: ”İndiyədək Azərbaycan bu istiqamətdə bir sıra vacib və dəyərli təşəbbüslərlə çıxış edib, dünya güclərini həmrəyliyə çağırıb. Məhz Prezident İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının pandemiya ilə mübarizə mövzusunda dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası uğurla keçirilib. Təşkilatın vaksinasiya ilə əlaqədar qətnamə qəbul etməsi Azərbaycanın beynəlxalq ictimaiyyətin əlaqələndirilmiş birgə fəaliyyətinə böyük töhfələri hesab edilir. Bu mənada, Azərbaycan pandemiyaya qarşı ölkə daxilində ardıcıl mübarizə tədbirləri gördüyü kimi, beynəlxalq miqyasda da özünü məsuliyyətli dövlət kimi aparması ilə böyük rəğbət qazanıb. Qlobal həmrəyliyin möhkəmlənməsinə fəal dəstək nümayiş etdirib. Bununla yanaşı, Azərbaycan öz beynəlxalq məsuliyyətinə sadiq olaraq könüllü şəkildə Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar həcmində, eləcə də 30-dan çox ölkəyə koronavirusla mübarizədə birbaşa humanitar və maliyyə yardımı ayırıb. Hətta Azərbaycanın pandemiya ilə uğurlu mübarizəsi ÜST tərəfindən dəfələrlə vurğulanıb. Digər ölkələrə nümunə göstərilib”.

**A.Məmmədov vurğulayıb ki, peyvəndlərlə bağlı Azərbaycan bir neçə dəfə təşəbbüslərlə çıxış edib:** ”Cənab Prezidentin təşəbbüsü ilə Qoşulmama Hərəkatının sədri qismində Qoşulmama Hərəkatının koronavirusla mübarizəyə həsr edilmiş Zirvə toplantısı keçirilib. Həmçinin yenə ölkə başçısının təşəbbüsü ilə ötən ilin dekabr ayında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası keçirilib. Bütün bunlar isə onu deməyə əsas verir ki, Azərbaycan bu mübarizədə də nümunəvi addımları ilə dünyaya dərs keçmiş oldu”.

**İsmayıl Qocayev**

# Ərdoğanın səfəri ciddi dönüş yaradacaq

“Türkiyənin Azərbaycanda hərbi mövcudluğu ilə bağlı təcili müqavilə imzalanmalıdır”



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Belçikada NATO sammitinə qatılacaq, ardınca isə Bakıya gələcək. Bu barədə ”Son Dakika” xəbər verib.**

Məlumata görə, Türkiyənin dövlət başçısı iyunun 13-14-də Brüsseldə NATO sammitində iştirak edəcək və ABŞ Prezidenti Co Bayden ilə görüşəcək. O, Brüssel sammitindən sonra iyunun 14-16-da Bakıda səfərdə olacaq.

**Səfər zamanı müzakirə olunacaq məsələlər barədə ”Şərq”ə danışan Azərbaycan Demokrat Partiyası sədrinin müavini, politoloq Həsrət Rüstəmovun sözlərinə görə, Ərdoğanın Bakıya gəlişi əlamətdar bir hadisədir:** ”Xüsusilə Azərbaycan, Ermənistan və Rusiya arasında bağlanmış müqavilənin tələblərinə əsasən, Türkiyə Qarabağ ətrafındakı Monitorinq Mərkəzində iştirak etməli idi. Lakin son zamanlar görünən budur ki, Türkiyənin qeyd etdiyim prosesdə rolu getdikcə zəifləyir. Əsasən də türk siyasi rəhbərlərinin bu məsələyə dair bəyanatlarına rast gəlinməməsi, o cümlədən Türkiyənin rəsmi qurumlarının Azərbaycana səfərlərinin azalması və Ermənistanla Rusiyanın fəallaşması belə qənaəti yaradıb. Ərdoğanın səfəri zamanı əsas məqsəd ilk növbədə bu boşluğu doldurmaqdır. Eyni zamanda Türkiyənin 44 günlük müharibədə oynadığı rolun davamı Azərbaycan və Cənubi Qafqazda atılan siyasi addımlarla olmalıdır. Yoxsa bu siyasət yarımçıq olar. Səfər zamanı Azərbaycan hökuməti xalqımızın istəklərini Türkiyə Prezidentinə çatdırmalıdır”.

*H.Rüstəmov vurğulayıb ki, Türkiyənin regionda mövcudluğu Azərbaycanın dövlət müstəqilliyinin qorunması və Cənubi Qafqazda qüvvələr balansının düzgün formalaşması baxımından zəruridir:* ”Qarabağda müəyyən məsələləri bəyanatda qeyd edildiyi kimi həll etmək mümkün deyilsə, Türkiyənin Azərbaycanda hərbi mövcudluğu ilə bağlı təcili müqavilə imzalanmalıdır. Qardaş ölkənin Azərbaycana hərbi və siyasi imkanlarını artıran sənədlər imzalanmalıdır. Fikrimcə, Azərbaycan hökuməti bu məsələdə çox ləngdir. Görünür, hansısa səbəbdən burada Rusiya qorxusu da var. Heç kimə sirr deyil ki, Azərbaycan hökumətində ruspərəst kadrlar çoxdur. Onların da təsiri olmamış deyil. Hesab edirəm ki, Ərdoğanın səfərindən sonra istədiyimiz məqamlarda ciddi dönüş əldə etmək mümkün olacaq”.

**Yeganə Bayramova**

## İstifadə üçün yararlı olan çimərliklərin ilkin siyahısı açıqlandı

**”Novxanı, Goradil, Sabunçu rayonunda Nardaran, eləcə də Zağulba çimərliyi bakteroloji baxımdan aparılan ilkin müayinələrin nəticəsinə görə əhalinin istifadəsi üçün yararlı hesab oluna bilər”.**

”Report” xəbər verir ki, bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Xəzər kompleks ekoloji monitorinq idarəsinin rəisi Nazim Mahmudov ”Ekspert saatı”ında deyib.

Nazirlik rəsmisi qeyd edib ki, digər çimərliklərdə aparılan tədqiqatlar davam etdirilir:

”İyunun 15-nə qədər bütün nəticələr məlum olacaq”.

## Bakıda gənc qız özünü göydələndən atmaq istədi



**Bakıda gənc qız intihara cəhd edib.**

**”Report”un xəbərinə görə, sosial şəbəkələrdə hadisə anının görüntüləri yayılıb.**

Belə ki, çoxmərtəbəli binanın balkonuna çıxan qız özünü atmaq istəyib. Bu zaman orada olan şəxslər və polis əməkdaşları qızı xilas edib.

# Ermənistanda vətəndaş müharibəsi gözlənilir



“Rəsmi Moskva bu seçkilərdə nəyi bilirsə onu da edəcək”

Ermənistanda istefalar davam edir. Ermənistan xarici işlər nazirinin müavini Qaqik Qalaçyan istefa verib. Bu barədə Ermənistan XİN-in mətbuat katibi Anna Naqdalyan məlumat verib. Nazir müavinin istefa ərizəsini hələ mayın 27-də XİN rəhbəri Ara Ayvazyan istefa verərkən yazdığı bildirilir. Anna Naqdalyan erməni KİV-ə açıqlamasında özünün də istefa verdiyini açıqlayıb.

Qeyd edək ki, Ermənistan mətbuatı Ara Ayvazyanın digər müavinlərinin də istefa vermək niyyətində olduğunu yazmışdı.

İrəvandakı kütləvi istefaların gələcək nəticələrini ”Şərq”ə dəyərləndirən sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli bildirib ki, kütləvi istefalar ciddi hakimiyyət böhranından xəbər verir: ”Məqsəd Paşinyanın seçkilərdəki mövqeyini zəiflətməkdən ibarətdir. Paşinyana əsasən Rusiya istiqamətindən hücum edirlər: Onun antirus mövqedə olduğunu sübut etmək üçün generalları qabağa verirlər. Məsələn, Ermənistan Baş Qərargah rəisinin müavini, general-leytenant bildirir ki, ”müharibə dövründə bəzi raketlərdən (yəqin ki, ”İsgəndər-M”i nəzərdə tuturlar) atəş açmaq üçün Rusiyadan icazə alınmalı idi. Lakin Paşinyan mənə dedi ki, ”Rusiya kimdir? Ali baş komandan mənəm və əmr edirəmsə, atəş açılmalıdır” ”.

Bununla da Rusiyanın bölgədəki mövqeyinə kölgə salmağa çalışırlar. Onsuz da Rusiya bölgədə müəmmalı oyun oynamaqdadır. Rusiya Paşinyana müəyyən məsələləri söyləyir, digər tərəfdən isə Robert Koçaryanın mövqeyini möhkəmləndirmək üçün hansısa addımın atılmasına çalışır”.

*Q.Hüseynli qeyd edib ki, Ermənistandakı istefalara baxmayaraq, Paşinyanın reytinqi hələ də yüksəkdir:* ”Seçkilərdə qarşıdurma yarana, hətta silahlı hücumlar, vətəndaş müharibəsinə səbəb olacaq məqamlar yaşana bilər. Rusiya isə vəziyyətin qarışıq olduğunu görüb proseslərə müdaxilə edə, Ermənistandakı bütün idarəçiliyə nəzarəti əlinə götürə bilər. Beləliklə, seçkilər Rusiyanın nəzarəti altında keçirilər. Rəsmi Moskva isə bu seçkilərdə nəyi bilirsə onu da edəcək. Ona görə də Ermənistanın taleyi Rusiyadan asılıdır desək, yanılmarıq”.

**Yeganə Bayramova**

İrəvanda itkin düşmüş hərbi qulluqçuların valideynlərinin etiraz aksiyası keçirilir. Bu barədə "Telegram"ın Ermənistan seqmentində məlumat yayılıb. İtkin düşən hərbçilərin valideynləri və yaxınları İrəvanın Qeratsi küçəsini hər iki istiqamətdə bağlayıblar.



# Şimal qonşumuz addım-addım məqsədinə çatır

### Zəngəzurun müəyyən hissəsi Rusiyanın nəzarətinə keçib

Etirazçılar bildirirlər ki, hakimiyyət bütün bu müddət ərzində ölmüş hərbçilərin cəsədlərini soyuducularda saxlayıb. Növbədənkənar seçkilər ərəfəsində düşmən ölkədə vəziyyət olduqca xaotikdir. Siyasətçilər biri-birlərinin ”ayıblarını göstərməklə” təbliğat kampaniyasını davam etdirirlər. Bu isə onu deməyə əsas verir ki, qarşıdakı bir neçə həftədə rəsmi İrəvan ”qaynar qazana” çevriləcək.

**”Ədalət” Partiyası sədrinin siyasi məsələlər üzrə müavini Elxan Şükürlü Ermənistanda növbədənkənar seçkilər barədə proqnozlarını ”Şərq”lə bölüşüb:** ”Hazırkı etirazlar Koçaryanın planıdır. Həm iğtişaşlar, həm də sərhəddəki gərginlik Paşinyanın reytinqini azaldır. Fikrimcə, xaotik durum seçkilərədək davam edəcək. Koçaryanın həmlələri nəticəsində Paşinyanın reytinqinin müəyyən qədər azalmasına rəğmən, bloku yenə də öndədir. Hətta gələcəkdə Koçaryana qarşı vahid koalisiya da yarana bilər. ”Qarabağ klanı”nın şansı, demək olar, yoxdur. Çünki erməni cəmiyyəti müharibədən yorulub. Xalqa dinc siyasət yeridən iqtidar lazımdır. Kim Azərbaycanla, Türkiyə ilə əlaqələrin qurulmasında maraqlı olsa, o da qalib gələcək”.

E.Şükürlü, həmçinin baş verənlərə Rusiyanın münasibətindən də danışıb: ”Moskvanın Koçaryanın arxasında dayanaraq onu hakimiyyəti gətirəcəyi ehtimalları real deyil. Kremlin istədiyi Koçaryan və tərəfdarlarının parlamentdə təmsil olunmasıdır. Məqsəd isə Paşinyana və digərlərinə qarşı təzyiq aləti yaratmaqdır. Amma Rusiya heç bir halda müxalif qüvvənin hakimiyyətə gəlməsində maraqlı deyil. Çünki şimal qonşumuz kommunikasiyaların ən qısa zamanda açılmasını istəyir. Hakimiyyət dəyişsə, bu proses uzanacaq və rəy yaranacaq ki, Moskva sülhməramlılıq missiyasını yerinə yetirə bilmir. Bu isə onun beynəlxalq miqyasdakı imicinə zərbədir. Rusiya Ermənistan cəmiyyətində nüfuzu olmayan, ruspərəstlərin parlamentə gəlməsi və dediyim kimi, onlardan Paşinyana qarşı təzyiq aləti kimi istifadə etmək istəyir. Beləliklə, Ermənistanda imtiyazlar əldə etməyi planlayır. Məsələn, Zəngəzurun müəyyən hissəsinin Rusiyanın federal təhlükəsizlik xidmətinin nəzarətinə keçməsi barədə razılıq şimal qonşumuzun addım-addım məqsədinə çatdığını göstərir. Özü də Paşinyanı məhv edərək. Bir vaxtlar anti-rus siyasət yeridən və rus hərbi bazasının ölkəsindən çıxarılması iddiası ilə çıxış edən Paşinyan indi Moskvanın şərtlərinə əməl etməyə məcbur qalır”.

“Paşinyan indi Moskvanın şərtlərinə əməl etməyə məcbur qalır”

**Kənan**

# Ciddi hazırlıq aparılır

## Türkiyənin hərbi bazası Zəngilanda yerləşdirilə bilər

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan yaxın günlərdə ölkəmizdə səfərdə olacaq. Bu ərəfədə, daha dəqiq desək, iyunun 3-də isə Bakıda Azərbaycan-Türkiyə 13-cü Yüksək Səviyyəli Hərbi Dialoq İclası işinə başlayacaq. İki mühüm hadisənin eyni vaxta düşməsi beyinlərdə müxtəlif suallar yaradır. İki qardaş dövlət hansı ciddi addım atmağa hazırlaşırlar?



**"Çünki həmin bölgə Zəngəzur dəhlizinə yaxındır. Türkiyə bununla dəhlizin gələcək təhlükəsizliyini Naxçıvandan və Zəngilandan nəzarət altına alır"**

***Siyasi analitik Asif Nərimanlı ölkəmizdə Türkiyənin hərbi bazasının yaradılması barədə "Şərq"ə danışıb.*** Onun fikrincə, bunun üçün əngəl yoxdur: "Türkiyənin Azərbaycanın üç şəhərində (Gəncə, Lənkəran və Qəbələ) hərbi baza açacağı xəbərləri bu ilin yanvarında yayılmışdı. Lakin rəsmi səviyyədə təkzib olundu və səbəb kimi Azərbaycanın Qoşulmama Hərəkatına üzvlüyü göstərildi. Qoşulmama Hərəkatının nizamnaməsində üzv dövlətlərin ərazisində digər ölkənin hərbi bazasının mövcud olması haqda qadağa qeyd olunmayıb. "Böyük dövlətlərin hər hansı xüsusi maraqlarına xidmət etmək üçün kollektiv müdafiə tədbirlərinin istifadəsindən çəkinmək" qeydi üzv ölkələrin hərbi bloklara qoşulmamasını nəzərdə tutur. Rəsmi Bakının baza xəbərini həmin bloka üzvlüyə istinadən təkzib etməsinin iki səbəbi ola bilərdi: Birincisi, baza ilə bağlı hazırlıqların tam başa çatdırılmaması və proses tamamamlanmamış çıxan xəbərlərin yarada biləcəyi təhlükələri sığortalamaq; ikincisi isə kənar təzyiqləri, xüsusilə Rusiya və İranın mövqeyini neytrallaşdırmaq. Türkiyənin Azərbaycanda hərbi baza qura bilməsinə Qoşulmama Hərəkatına üzvlüyü maneə yaratmır. Çünki Türkiyənin həcmindən asılı olmayaraq, hərbi bazalarının mövcud olduğu ölkələr arasında Qoşulmama Hərəkatına üzv olanlar da var: İraq, Somali, Livan, Əfqanıstan, Qətər və s. Həmçinin Türkiyənin bazasının qurulması Azərbaycanın hansısa hərbi bloka qoşulması demək deyil. Nəhayət, Türkiyə-Azərbaycan arasında hərbi əməkdaşlığın səviyyəsi belə bir təşəbbüsə imkan verir".

**Nərimanlının fikrincə, Türkiyənin Azərbaycanda hərbi baza yaratması üçün əsas var:** "İstisna deyil ki, Yüksək Səviyyəli Hərbi Dialoq İclasında Türkiyənin Azərbaycanda hərbi mövcudluğunun rəsmiləşdirilməsi məsələsi müzakirə olunacaq. Bu, indiki dövrdə hərbi baza kimi olmasa belə, hansısa təmsilçilik formatında mümkündür. İclasda Ərdoğanın Bakı səfərində imzalanacaq sənədin hazırlığının həyata keçiriləcəyi ehtimalı böyükdür. Bu kontekstdə Müdafiə nazirinin müavini, Hərbi Hava Qüvvələrinin (HHQ) komandanı general-leytenant Ramiz Tahirovun "Anatolian Phoenix-2021" təliminin "Yüksək müşahidəçi günü"ndə iştirak etmək məqsədilə Konya şəhərinə getməsi diqqət çəkir. Və bu, Türkiyənin Azərbaycanda hərbi hava bazasının yaradıla biləcəyi versiyasını da ön plana çıxarır".

**O, həmçinin bazanın harda yaradılması məsələsinə də toxundu:** "Türkiyənin hərbi mövcudluğu hansı bölgədə ola bilər? Yanvar ayında yayılan xəbərdə üç şəhərin adı çəkilirdi. Hərçənd, indiki dövrdə işğaldan azad edilmiş ərazilərdə olması versiyası da istisna deyil. Mümkündür ki, hərbi mövcudluq - hərbi baza, yaxud təmsilçilik - hərbi hava bazası da ola bilər - Zəngilanda olsun. Çünki həmin bölgə Zəngəzur dəhlizinə yaxındır. Türkiyə bununla dəhlizin gələcək təhlükəsizliyini Naxçıvandan və Zəngilandan nəzarət altına alır. Zəngilanda aeroportun inşası layihəsinin olması da bu kontekstdə diqqət çəkir. Yaxın günlərdə məsələyə aydınlıq gələcək, lakin proseslərin inkişafı, Ərdoğanın səfəri öncəsi Türkiyə və Azərbaycan generallarının qarşılıqlı səfərləri ciddi hazırlığın aparıldığını deməyə əsas verir".

**Kənan Novruzov**

## Əlverişli şərait yaranıb

### Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlıq güclənir



**İyunun 3-də Bakıda Azərbaycan-Türkiyə 13-cü Yüksək Səviyyəli Hərbi Dialoq İclası işinə başlayacaq.**

İclasda Azərbaycan ilə Türkiyə arasında təhlükəsizlik, hərbi, hərbi-texniki, hərbi tibb, hərbi təhsil, hərbi sənaye və digər sahələrdə ikitərəfli əməkdaşlığın hazırkı vəziyyəti müzakirə ediləcək. Tərəflər hərbi və müdafiə sahəsində inkişaf perspektivlərini və əsas fəaliyyət istiqamətlərini də nəzərdən keçirəcəklər.

**Hərbi ekspert Ədalət Verdiyev sözügedən iclasın əhəmiyyəti barədə "Şərq"ə danışıb:** "Bu tədbir müntəzəm keçirilir. Sonuncu dəfə 2019-cu ildə təşkil olunub. O vaxt tərəflər arasındakı əməkdaşlığın əsas istiqamətləri müəyyənləşdi. Həmin iclas 2020-ci il üçün fəaliyyət proqramının müəyyənləşdirilməsi ilə başa çatdı. Bu dəfə iclas əslində Türkiyədə keçirilməli idi. Amma müharibə səbəbindən yenə də Bakıda təşkil ediləcək. Fikrimcə, mövcud qərarların reallaşması və gələcək fəaliyyətin nizamlanması sahəsində mühüm addımlar atılacaq. İclasın Azərbaycan və Türkiyə dövlət başçılarının görüşü ərəfəsində keçirilməsi isə xüsusi əhəmiyyətlidir. Bu, yeni geosiyasi vəziyyətdə qardaş ölkələrin fərqli sahələrdəki əməkdaşlığını gündəmə gətirir. Əlxüsus, Ağdamdakı sənaye parkında Türkiyə Müdafiə Sənayesi şirkətlərinin fəaliyyəti üçün əlverişli şərait var".

**Kənan**

## Onları islah etmək mümkün deyil

### Ombudsman da həyasızlıq edirsə, demək ki, erməni xalqının düçar olduğu xəstəliyin müalicəsi yoxdur



**"Ermənistan ombudsmanının son müsahibəsindən sonra bir daha əmin oldum ki, erməni xalqının düçar olduğu xəstəliyin müalicəsi yoxdur".**

Bu sözləri politoloq Elçin Mirzəbəyli deyib. Siyasi şərhçi vurğulayıb ki, Arman Tatoyan adlı "insan haqları müvəkkili" Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiya və demarkasiyası haqqında öz fərziyyələrini irəli sürüb: "O iddia edib ki, SSRİ dövründə böyük torpaq sahələrinə sahib olan azərbaycanlılar onlara məxsus olan əraziləri ermənilərə satıblar və daha sonra bu torpaqları geri istəyiblər. Nəticədə isə "mübahisəli ərazilər" yaranıb. Tatoyana görə, erməni "arxivlərində" bununla bağlı çoxlu sayda "material" var. Nə qədər həyasız olmaq lazımdır ki, torpaq sahələrinin "kollektiv təsərrüfat" adı altında dövlətə məxsus olduğu federal bir dövlətdə "böyük torpaq sahibləri"nin olduğunu və hətta onların "öz torpaqlarını ermənilərə satdıqlarını" iddia edə biləsən... Görəsən, Tatoyan doğrudan da anlamır ki, başqa bir dövlətin vətəndaşı və ya inzibati ərazi subyektinin sakininin torpaq sahəsi almasıyla, həmin torpaq sahəsi mülkiyyətçinin vətəndaşı olduğu dövlətin ərazisinə çevrilmir?! Bunları islah etmək mümkün deyil!".

**İsmayıl**

# Şuşada tikiləcək məktəbdə Türkiyədən gələn müəllimlər də dərs deyəcək

### "Bu məktəbin məzunları üçün daha geniş imkan yaradılacaq"

Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın iyunun 15-də Azərbaycana səfərə gələcəyi, iyunun 16-da isə müqəddəs və qalib Şuşanı ziyarət edəcəyi gözlənilir. Qardaş ölkənin dövlət başçısının bu səfəri zamanı həmçinin Şuşada Türkiyənin dəstəyi ilə inşa ediləcək məktəb binasının təməlinin qoyulacağı da bildirilir.



Bu haqda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Milli təhsil naziri Ziya Selçuku bir neçə gün öncə qəbul edərkən danışıb. Dövlət başçısı bildirib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşaya gözlənilən səfəri çərçivəsində Türkiyə tərəfindən təklif edilən bir hədiyyə kimi, məktəbin təməlqoyma mərasiminin keçirilməsi proqramda əksini tapıb.

**Z.Selçuk isə "Report"a eksklüziv müsahibəsində deyib ki, Şuşada inşa ediləcək məktəbdə nəyə ehtiyac olarsa, hamısı Türkiyə dövləti tərəfindən qarşılanacaq.**

Nazirin sözlərinə görə, bəzi dərslərin Türkiyədən gələn və ya Türkiyədə təhsil almış müəllimlər tərəfindən keçirilməsi nəzərdə tutulur: "Bəzi dərslərin isə azərbaycanlı müəllimlər tərəfindən tədris olunması planlaşdırılır. Birlikdə bəzi layihələr həyata keçirmək və ortaq dərs keçmək arzusu da var".

**Məsələ ilə bağlı "Şərq"ə açıqlama verən təhsil eksperti Elşən Ramizoğlu qeyd edib ki, Şuşamızda belə bir məktəbin fəaliyyət göstərməsi ilk növbədə təhsil sahəsində də beynəlxaq əməkdaşlıqların daha uğurlu olmasına töhfə verəcək:**

- Ümumiyyətlə, "Təhsil haqqında" qanuna görə təhsil müəssisəsinin təsisçiləri əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər olan təhsil müəssisələrinin müəllim heyətinin tərkibində Azərbaycan Respublikasının vətəndaşları sayca üstünlük təşkil etməlidir. Yerli kadr potensialı buna imkan vermədikdə, say nisbəti dəyişdirilə bilər. Yəni burda Türkiyədən gələn müəllimlər də dərs deyə bilər, ancaq kadr potensialı problem olmazsa, Azərbaycan vətəndaşları sayca üstünlük təşkil etməlidir. Əlbəttə, bu məktəb təbii ki, qardaş ölkə ilə əlaqələrin daha da dərinləşməsinə töhfə verəcək. Türkiyə təhsil sistemi ilə bizim təhsil sistemində fərqli məqamlar çoxdur. Türkiyədə ibtidai təhsil icbaridir və dövlət məktəblərində pulsuzdur. İbtidai təhsil pilləsi 6-14 yaş arasındakı uşaqları əhatə edir. Orta təhsil dördillikdir. Orta təhsil ümumi, peşə və texniki orta təhsil müəssisələrini əhatə edir. Yəni fərqlilik mövcuddur. Türkiyənin bu cür təşəbbüsü təqdirəlayiqdir, əlbəttə ki, bu məktəb ən yüksək səviyyədə olacaq. Həm də nəzərə alaq ki, hər zaman bütün gözlər bu məktəbdə olacaq.

**E.Ramizoğlu bildirdi ki, inşa ediləcək məktəblə bağlı bəzi detallar açıqlandıqdan sonra daha aydın təsəvvür yaranacaq:**

- Fikrimcə, bu məktəbin məzunları üçün də daha geniş imkan yaradılacaq. Bu haqda danışmaq hələ tez olsa da, ancaq imkanların böyük olacağını söyləmək mümkündür. Hər bir halda gözəl təhsil gözləyirik.

**Məlahət Rzayeva**

# Bölgədə ən böyük təhlükə Ermənistandır

ABŞ da, Fransa da bu ölkənin təxribatlarına, sülhün yaranmasına əngəl törədən əməllərinə susqunluq nümayiş etdirdi

**ATƏT-in Minsk Qrupunun həmsədrlərinin bəyanatında 6 erməni diversant haqda deyilən ifadələr təşkilatın sərgilədiyi qərəzli mövqeni bir daha sübut etdi. Qurumun Azərbaycan-Ermənistan dövlət sərhədində yaşanan son gərginliklər barədə və diversiya qrupunun Azərbaycan ərazilərinə daxil olaraq, təxribat aktı törətmək cəhdindən bir kəlmə belə demədiyi halda, 6 diversantı müdafiə etməsi siyasi riyakarlıqdır.**



## “Elmar Məmmədyarov dönəmi bitib, amma yenə xaricdəki diplomatlarımız istədiyimiz gözləntiləri vermirlər”

27 ildir formal fəaliyyət göstərməsinə rəğmən, münaqişənin nizama salınmasında heç bir effektiv iş görməyən Minsk qrupu bu gün də boş və mənasız bəyanatlar verməkdədir. Halbuki, bütün gün ”demokratiyadan” dəm vuran Qərb dövlətləri tərəfsizliyini qorumalı, ən azından sülhə çağırış etməli, yeni reallıqlar çərçivəsində fəaliyyət göstərdiyini ortaya qoymalıdır. Ötən gün Xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarla telefon danışığı zamanı sərhəddə baş verən gərginliklərə görə bütün məsuliyyətin Ermənistan tərəfində olduğunu deyib. Nazir bildirib ki, Azərbaycanın minaların təmizlənməsi ilə məşğul olduğu bir vaxtda Ermənistan tərəfinin bu kimi təxribatlara əl atması, ərazilərimizə təcavüz edərək yeni minalar basdırmağa cəhd etməsi yolverilməzdir.

**Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə ”Şərq”ə açıqlamasında vurğulayıb ki, Qərbin Azərbaycana yad münasibəti hamıya bəllidir.** Partiya rəhbərinin sözlərinə görə, bu cür münasibətin bir neçə səbəbi var. İlk səbəb qərəzli mövqedir. 30 ilə yaxın müddətdə Azərbaycanın işğal altında qalmış torpaqları ilə bağlı Qərb dövlətləri faktiki heç bir rasional addım atmadı. Qərbin aparıcı ölkələri, xüsusən ABŞ və Fransa Minsk qrupunun həmsədri kimi fəaliyyət göstərdikləri müddətdə bir dəfə olsun Azərbaycanın yanında olmadılar. Əksinə, torpaqlarımızın işğal altında qalmasını rəsmiləşdirmək istiqamətində addımlar atıldı. Münaqişənin həllinə deyil, dondurulmasına, ”status-kvo”nun qorunub saxlanmasına çalışdılar ki, zaman keçdikcə Azərbaycan torpaqlarının itirilməsi reallığı ilə barışmaq məcburiyyətində qalsın. Burada həm xristian təəssübkeşliyi, həm də türk dünyasına mənfi münasibət mühüm rol oynayırdı. Ələlxüsus, Türkiyənin regionda və dünyada söz sahibinə çevrilməsindən, müharibədə bizə verdiyi mühüm dəstəkdən sonra Qərb dövlətləri daha çox təşvişə düşdü. Ritorikaları daha da sərtləşdi. Şübhə etmirəm ki, Qərb hökumətləri Ermənistanın uzun müddət yürütdüyü işğalçılıq siyasətindən, davamlı təxribatlarından xəbərdardırlar. Məqsədyönlü şəkildə reallığı görməzdən gəlirdi və ”kor tutduğundan buraxmaz” prinsipinə uyğun hərəkət edirdilər. İndi də eyni mövqedədirlər”.

*A.Əlizadə vurğulayıb ki, müharibədən 6 ay keçməsinə, Azərbaycan tərəfinin minalanmış ərazilərin xəritələri ilə bağlı dəfələrlə məsələ qaldırmasına baxmayaraq, İrəvan hökumətindən müsbət addım atılmayıb:* ”Ermənistana təzyiqlər edilmədi. Əksinə, bu ölkənin təxribatlarına, sülhün yaranmasına əngəl törədən əməllərinə susqunluq nümayiş etdirildi. Minalanmış ərazilərin xəritələrinin verilməməsinə görə 22 nəfər insanımız həyatını itirdi, çoxsaylı vətəndaşımız yaralandı. İşğaldan azad edilmiş rayonlarımızın acınacaqlı vəziyyəti, erməni barbarlığının izləri də göz önündədir. Bu qədər real hadisəyə layiqli qiymət verməyən Qərb ölkələri Azərbaycan ərazisinə keçərək terror və diversiya ilə məşğul olmağa çalışan ermənilərin sərbəst buraxılmasını tələb edirlər. Açıq görünür ki, Qərb dairələrinin ədalətlə, regional sülh və əməkdaşlıqla bağlı narahatlıqları yoxdur. Bu məsələlər ümumiyyətlə onları maraqlandırmır”.

**Partiya sədri diplomatiyamızın bu məsələdə axsadığını söyləyib:** ”Qərbin bizi qane etməyən münasibətinin səbəblərindən biri budur. Sabiq XİN rəhbəri Elmar Məmmədyarovun yerində olmayan nazir olduğunu dəfələrlə gündəmə gətirirdik. Onun zamanında müxtəlif ölkələrdə səfir kimi çalışanların, diplomatik korpus nümayəndələrinin də fəaliyyəti bərbad idi. Bəzi diplomatların fəaliyyəti nəinki xeyir gətirir, əksinə, bizə ziyan vururdu. Çoxu öz şəxsi marağına, biznes fəaliyyətinə və çalışdıqları ölkənin mövqeyinə uyğun hərəkət edirdi. Azərbaycanın maraqları isə tamamilə arxa planda qalırdı. Müharibədən sonra bu sahədə ciddi dəyişiklik gözləyirdik. Əfsuslar olsun ki, hələ də istədiyimiz effekti görə bilmirik. Diaspora təşkilatlarımızın bəziləri faktiki olaraq fəaliyyət göstərmirlər. Ayrı-ayrı diaspora nümayəndələri ilə görüşüb, müəyyən tədbirlər təşkil etmək Azərbaycanın təbliğatı sayılmır. Həqiqətlərimizi dünya ictimaiyyətinə ən yüksək səviyyədə çatdırmalıyıq. Hansısa Qərb dövləti, yəni konkret hökumət rəsmi Bakıya qarşı qərəzli ola bilər. Biz həmin ölkələrin ictimaiyyətinə nüfuz etməli, təbliğatı onlar arasında aparmalıyıq ki, haqqın-ədalətin yanında olsunlar. Unutmayaq ki, beynəlxalq ictimaiyyət hökumətlərə təsir imkanına malikdir”.

**İsmayıl Qocayev**



# Düşmənə daha aman vermərik

“Türkiyədə keçirilən döyüş hazırlıqları ordumuza xüsusi güc və təcrübə qazandırır”

**Ali Baş Komandan İlham Əliyevin təsdiq etdiyi plana əsasən Azərbaycan Ordusunda qoşun növlərinin hərbi təlimləri davam edir.**

15000 nəfərədək şəxsi heyətin iştirak etdiyi təlimlərdə 300-dək tank və digər zirehli texnika, 400-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri, minaatan və tank əleyhinə vasitələr, 50-dək hərbi aviasiya və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunub.

Hərbçilərimiz bu gün Türkiyədə keçirilən növbəti təlimdə iştirak ediblər. Qardaş ölkədə ”Anadolu Ankası - 2021” beynəlxalq təlimi davam edir. Türkiyə Milli Müdafiə Nazirliyinin ”Twitter” səhifəsində təlimin yeni görüntüləri yerləşdirilib. Təlimlər Konya şəhərində keçirilir.

**Ehtiyatda olan polkovnik Elxan Qəniyev ”Şərq”ə bildirib ki, bu cür təlimlərin keçirilməsi olduqca müsbətdir:** ”Çünki belə hazırlıqlar ordumuzun döyüş qabiliyyətinin daha da gücləndirilməsinə hesablanıb. Hərbçilərimiz belə təlimlər zamanı böyük bilgilər əldə edirlər. Əvvəllər yol verdiyimiz səhvlər məhz bu təlimlər nəticəsində aradan qaldırılacaq. Məhz Türkiyədə keçirilən döyüş hazırlıqları ordumuza xüsusi güc və təcrübə qazandırır. Gələcəkdə düşmənin təxribatları olarsa, bunun qarşısını almaq üçün görülməsi lazım olan bütün tədbirlərə belə təlimlər sayəsində nail ola bilərik”.

**Yeganə**

# Rusiya hələ suallarımıza cavab verməyib

“İsgəndər-M”lə bağlı mövzu hələ aktuallığını saxlayır

Son vaxtlar Azərbaycan-Ermənistan sərhəddində yaşanan gərginliklər bir çox məsələnin gündəmdən düşməsinə şərait yaratdı. Məsələn, ermənilərin sərhəddəki təxribatlarından öncə "İsgəndər-M" raketi ilə bağlı mövzu xeyli aktual idi. Bu məsələdə xüsusilə Rusiya tərəfinin əli olduğuna dair bəzi iddialar, hətta konkret faktlar ortaya çıxsa da, nədənsə, müzakirələrə son verildi.

Bəlkə rəsmi Moskva səslənən iddialardan boyun qaçırmaq üçün sərhəddəki iğtişaşların yaranmasına təkan verir? Aydın məsələdir ki, Rusiyanın bölgədə yürütdüyü siyasət maraqlarımıza cavab vermir. Bu baxımdan şimal qonşumuzun ”İsgəndər-M”lə məsələnin ört-basdır edilməsi üçün əlindən gələni edəcəyinə dair faktlar inandırıcıdır.

**Millət vəkili Elman Məmmədov mövcud durumla bağlı fikirlərini ”Şərq”lə bölüşüb.**

“Azərbaycan əməkdaşlıq etdiyi istənilən dövlətə qarşı səmimidir və qarşı tərəfdən də belə münasibət gözləyir”



Parlamentari qeyd edib ki, bir zamanlar ”İsgəndər-M”lə bağlı məsələ aktuallaşdı, hətta Rusiya və Azərbaycan dövlət başçılarının səviyyəsində müzakirə olundu: ”Dövlətimiz bu məsələ ilə bağlı ortaya konkret tələb qoydu ki, baş verənlərə cavab verilsin. Lakin Rusiya tərəfindən qaneedici izahlar olmadı. Düzgün cavabdan yayındılar. ”İsgəndər-M” raketinin necə və haradan atılması barədə dəqiq məlumat olmadı, məsələ yenə də örtülü qaldı. Ancaq günahkar tərəflər dövlətimizin qarşısında aciz duruma düşdülər. Açıq olmasa da, günahları olduğunu bir növ etiraf etdilər. Arzu edək ki, bir daha Azərbaycana qarşı bu cür məkrli siyasət həyata keçirilməsin.

Qonşu dövlətlərlə əməkdaşlıq ediriksə, tərəflərin heç biri qeyri-səmimi, riyakar və saxtakar olmamalıdır, sözü ilə əməli üstə düşməlidir. Azərbaycan əməkdaşlıq etdiyi istənilən dövlətə qarşı səmimidir və qarşı tərəfdən də belə münasibət gözləyirik. Lakin çox zaman bunun şahidi olmuruq. Dost və əməkdaş olduğumuzu deyirlər, amma arxamızdan başqa işlər çevirirlər. Məsələn, qonşu İran bizimlə əməkdaşlıq haqqında söhbətlər aparır, bu yaxınlarda XİN başçısı da Azərbaycana gəldi, müxtəlif sahədə əməkdaşlığın davamı müzakirə edildi. Lakin mətbuatı izləyəndə görürük ki, İran ermənilərə humanitar yardımlar edir. 44 günlük müharibədən əvvəl və müharibə dövründə Ermənistana daimi olaraq silahlar göndərirdilər. Bu münasibət şimal qonşumuz Rusiyaya da aiddir. Gərək münasibətdə səmimi və düzgün olasan, riyakarlığa yol verməyəsən. Ona görə də belə məqamlarda çox diqqətli olmalıyıq”.

**Yeganə Bayramova**

# Makron Paşinyanı qorumaq istəyir



## “Fransanın “sülh təşəbbüsləri” Ermənistandakı seçkilərə açıq müdaxilə cəhdidir”

Fransa Ermənistanla Azərbaycan arasında sülhün bərpa olunmasına və dialoqun inkişafına yardım etmək istəyir. Bu barədə Fransa Prezidenti Emmanuel Makron Ermənistan Baş naziri vəzifəsini icra edən Nikol Paşinyanla Parisdə görüşü zamanı bildirib.

Makron deyib ki, Fransa ATƏT-in Minsk qrupunun həmsədri kimi Rusiya və ABŞ-la birgə tərəflər arasında birbaşa dialoqun bərpasına nail olmaq üçün hər şeyi etmək niyyətindədir. Ermənistan-Azərbaycan sərhədində insidentlərlə bağlı danışan Makron qeyd edib ki, sərhədlərin delimitasiyası yalnız danışıqlar yolu ilə, güc tətbiq olunmadan həyata keçirilməlidir. Makron Paşinyanla Parisdə humanitar yardımı və iqtisadi əməkdaşlığı müzakirə etmək niyyətində olduğunu da bildirib.

**Hər fürsətdə Cənubi Qafqaza soxulan, rədd edildiyi halda israrla proseslərə müdaxilə edən Fransa Prezidenti E.Makronun iddiasını ”Şərq”ə dəyərləndirən siyasi icmalçı Azər Niftiyev bildirib ki, Fransa Dağlıq Qarabağ münaqişəsində tərəf kimi çıxış edir.** Ekspertin sözlərinə görə, 44 günlük Vətən müharibəsi zamanı Fransa açıq-aşkar Ermənistanı müdafiə edirdi: ”Bu, istər siyasi münasibətlər kontekstində, istərsə də rəsmilər səviyyəsində aydın müşahidə olundu. Türkiyə sona qədər Azərbaycanın yanında oldu, bu gün də yanımızdadır. Amma Türkiyə ATƏT-in Minsk qrupunun həmsədri deyil və birtərəfli mövqe sərgiləyə bilər. Fransanın isə üzərinə götürdüyü öhdəliklər var. Vasitəçi ölkə tərəf kimi çıxış etməməlidir. Lakin rəsmi Paris dəfələrlə bu öhdəliyini pozub. Belə olduqda rəsmi Bakının tam haqqı çatırdı ki, Fransanın ATƏT-in Minsk qrupunda təmsilçiliyi məsələsini gündəmə gətirsin. Ancaq buna ehtiyac qalmayıb. Çünki Minsk qrupu fəaliyyətsiz qurumdur və münaqişələri nizamlamaq təcrübəsi yoxdur. Uğursuz təsisat olaraq tarixə qovuşub”.

A.Niftiyev vurğulayıb ki, Fransanın ”sülh təşəbbüsləri” Azərbaycana qarşı təzyiq olmaqla yanaşı, həm də Ermənistandakı seçkilərə açıq müdaxilə cəhdidir: ”Hər kəsə məlumdur ki, Nikol Paşinyan Qərbin proyektidir. Onun iqtidara gətirilməsində Fransanın da yaxından iştirakı olub. Ermənistanın kapitulyasiya aktından sonra Paşinyan erkən seçkilərə getmək məcburiyyətində qaldı. Qarşıda onu çox gərgin seçkilər gözləyir. Hazırkı şəraitdə Makronun məlum açıqlamaları da onu qorumaq cəhdindən qaynaqlanır. Bu həm də Türkiyəyə qarşı yönələn təzyiqdir. Türkiyənin beynəlxalq müstəvidə artan nüfuzu və müstəqil siyasət yürütməsi Qərb dairələrini, o cümlədən Fransanı da narahat edir”.

*Həmsöhbətimiz hesab edir ki, ölkədə olan siyasi partiyalar, vətəndaş cəmiyyəti insitutları, o cümlədən rəsmi dairələr Fransaya qarşı ictimai etiraz formaları müəyyənləşdirməlidir:* ”Əgər Emmanuel Makron Fransanın prezidentidirsə və bu dövlətin adından danışırsa, ATƏT-in Minsk qrupunda ölkəsinin götürdüyü öhdəliklərə əməl etməlidir. Yox əgər bunu da etməyəcəksə, həmsədrlikdən getməlidir. Məhz Minsk qrupunun uğursuz fəaliyyətinin nəticəsidir ki, Azərbaycan öz doğma torpaqlarını güc yolu ilə geri qaytardı. Bir halda ki, torpaqlarımız düşmən işğalından azad edilib və ortada yarıtmaz təcrübə var, belə olduqda Minsk qrupunun fəaliyyətinə birdəfəlik xitam verilməlidir”.

**İsmayıl Qocayev**



## “Babam 5 yaşı olanda o evdən çıxıb”

### Yararsız vəziyyətdə olan obyektin Əhməd Cavada heç bir aidiyyəti yoxdur

**Mədəniyyət Nazirliyi Azərbaycan Dövlət Himninin müəllifi, istiqlal şairi Əhməd Cavadın ata yurdunun yararsız vəziyyətdə olması ilə bağlı məsələyə münasibət bildirib.** Qurumdan verilən açıqlamaya görə, Mədəniyyət Nazirliyinin tabeliyində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Ə.Cavadın Ev Muzeyi fəaliyyət göstərmir.

*Məlumatda qeyd edilib:*

”Kütləvi informasiya vasitələrində və sosial mediada yer alan görüntülərdə Əhməd Cavada məxsus olduğu iddia edilən obyekt Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli qərarı ilə təsdiq olunmuş dövlət mühafizəsində olan tarix-memarlıq abidələrinin siyahısında yer almayıb”.

*Ə.Cavadın nəvəsi Anar Axundzadə ”Şərq”ə açıqlamasında bildirib ki, sözügedən evin babasına məxsus olması barədə xəbərlər yanlışdır:* ”Ə.Cavad 5 yaşında olanda o evdən çıxıb. Babamgil gedəndən sonra həmin ev başqa bir ailəyə verilib. Evin Ə.Cavada heç bir aidiyyəti yoxdur. Bu məlumatı kim özündən çıxardır, bilmirəm. Məsələni dəqiqləşdirməmiş yanlış informasiya yayırlar. Ona görə də bu xəbərlərə əhəmiyyət vermək lazım deyil. Ə.Cavadın ailəsindən olan şəxslər var. Zəng edib, onlardan soruşmamış ağıllarına nə gəldi yazırlar. 2 gündür telefonum susmaq bilmir. Yenə deyirəm, babam 5 yaşında oradan çıxıb, həmin ev heç özlərinin də olmayıb”.

**Yeganə**

## Ramiz Əzizbəyli reanimasiyaya yerləşdirilib



**Xalq artisti, kinorejissor Ramiz Əzizbəyli hazırda reanimasiyadadır.**

Bu barədə APA-ya Xalq artistinin qızı Xədicə Əzizbəyli məlumat verib.

O, atasının vəziyyətinin hazırda orta-ağır olduğunu, müalicəsinin hələ uzun müddət davam edəcəyini bildirib.

*Qeyd edək ki, Xalq artisi R.Əzizbəyli bir müddət öncə koronavirus (COVID-19) diaqnozu ilə xəstəxanaya yerləşdirilib.*

## Siyəzəndə 27 yaşlı gəlin intihar etdi



**Siyəzəndə 27 yaşlı gəlin özünü asıb. Modern.az bildirir ki, hadisə Siyəzənin Böyük Həmyə kəndində qeydə alınıb.**

Kənd sakini, 27 yaşlı Nuranə Şıxəli qızı Səfərəliyeva yaşadığı evin zirzəmisində özünü asaraq intihar edib.

Hadisə yerinə Siyəzən rayon polis şöbəsinin və prokurorluğunun əməkdaşları gəlib. Hadisə yeri müayinə olunub.

Bildirilir ki, mərhumun 1 azyaşlı qızı var.

Faktla bağlı Siyəzən rayon prokurorluğunda araşdırma başlanılıb.

Gənc gəlinin özünü öldürmə səbəbi hələlik məlum deyil.

# Açıq havada toyların keçirilməsi mümkündür

**Milli Məclisin iclasında Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva açıq havada toyların keçirilməsinə icazə verilməsini təklif edib. Parlament üzvü bildirib ki, açıq havada az sayda insanın iştirakı ilə mövcud qaydalara riayət edilməsi şərtilə toyların keçirilməsinə icazə verilməlidir.**

Komitə sədri açıq havada toy şənliklərinə icazə verilməsi ilə yanaşı, teatrların açılması üçün də Operativ Qərargaha çağırış edib: ”COVİD-19 pandemiyası ilə mübarizə vacib məsələlərdən biridir. Ölkəmiz bu istiqamətdə önəmli addımlar atdı. Biz də ziyalılar, deputatlar olaraq əlimizdən gələni etdik. Pandemiya ilə bağlı artıq yumşalmalara başlanılır. Bunlar hamısı qaydalara əməl edilməklə həyata keçiriləcək. Bu məqamda teatrlar da qaydalara riayət etməklə açılmalıdır. İnsanlarımız çox xahiş edirlər ki, açıq havada 100 nəfərin iştirakı ilə toy məclislərinin keçirilməsinə icazə verilsin. Demirik ki, çox insan qatılsın, az sayda iştirakçı ilə açıq havada qaydalara riayət etməklə toy etmək olar. Çünki 1 ildən çoxdur ki, toylara icazə verilmir”.



## “Məsafəni gözləmək və stolların normal qaydada düzülməsi ilə mərasim təşkil olunmalıdır”

**Tibb elmləri doktoru, professor-həkim Adil Qeybullanın ”Şərq”ə açıqlamasına görə, yumşalmalar olubsa, toylara da icazə verilə bilər:** ”Açıq havada toyların keçirilməsi mümkündür. Məsafəni gözləmək və stolların normal qaydada düzülməsi ilə mərasim təşkil olunmalıdır. Toyların keçirilə bilməsi üçün müəyyən format da tətbiq olunmalıdır. Məsələn, 75-100 nəfər arası insanla şənliyi etmək olar. Təbii ki, qonaqların hərarətini öncədən ölçmək lazımdır. Yəni müəyyən formatlarla toyları keçirmək mümkünsüz deyil. Çünki epidemioloji vəziyyət stabilləşməyə doğru gedir. Növbəti dalğa olmazsa və mövcud durum pisləşməzsə, toyların keçirilməsinə icazə vermək lazımdır. Yay aylarında bu məsələ həllini tapa bilər”.

**Yeganə Bayramova**

# Allahdan möhlət alan insanlar var



## Qocalar, yaşlı adamların Qarabağa avtobus turlarını təşkil etmək olar







### Qulu Ağsəs Aqil Abbasın fikirlərini ikiəlli dəstəklədi

"Şərq TV"nin qonağı olan millət vəkili Aqil Abbas maraqlı təkliflə çıxış edib. İşğaldan azad edilmiş ərazilərdə nəhəng quruculuq işlərindən danışan millət vəkili belə bir təklif irəli sürüb ki, 28 il əvvəl doğma yurd yerlərindən didərgin düşmüş insanlara həmin yurd yerlərini gedib ziyarət etmək imkanı yaradılmalıdır. Xüsusən də ahıl, yaşlı insanlara. Bu insanlar 28-30 ildir doğma torpaq həsrətiylə yaşayır.

Bir çoxu bu həsrətlə dünyadan köçüb. Hazırda həyatda olanlara və gözünü Qarabağ yollarına dikmiş ahıl, yaşlı insanlara öz evlərini, ocaqlarını ziyarət imkan yaradılsın. Bunu xüsusi turlar vasitəsilə həyata keçirmək olar.

Məlumdur ki, işğaldan azad edilmiş ərazilərə indiyədək bir çox səfərlər təşkil edilib. Həm yerli, həm də xarici media orqanlarının rəhbərləri, əməkdaşları, Azərbaycanda fəaliyyət göstərən xarici ölkə səfirliklərinin, diplomatik korpusların nümayəndələri, eləcə də xarici ölkələrdən gələn qonaqlar işğaldan azad edilmiş ərazilərdə səfərdə olublar. 28 il əvvəl doğma ocaqlarını tərk edib ölkənin müxtəlif bölgələrində məskunlaşmaq məcburiyyətində qalanlar da doğma yurdlarını ziyarət etmək istəyir və bu, onların doğal haqqıdır. Təbii ki, mina təhlükəsi də gözardı edilməməlidir. Lakin hansısa formada bu insanlara da ziyarət imkanı yaradıla bilərmi?

**Mövzu ilə bağlı "Şərq"lə fikirlərini bölüşən "Ulduz" jurnalının baş redaktoru, Əməkdar jurnalist, əslən Qarabağın Abdal-Gülablı kəndindən olan şair, publisist Qulu Ağsəs Aqil Abbasın təklifini ikiəlli dəstəklədiyini bildirib:**

- Əvvəla onu deyim ki, çox gözəl mübahisələr, dartışmalar, müzakirələr gedir. Bu, çox xoşdur. İnsanlarımız Qarabağa getməyin üstündə "dalaşırlar". Hamı oranı görmək istəyir. Amma. Bir əmma var. Jurnalistlərin, media nümayəndələrinin, diplomatların gedişi təxirəsalınmaz səfərlərdir. İstər yerli olsun, istər xarici media, onların səfəri son dərəcə vacibdir. Gördüklərini dünyaya çatdırırlar, həqiqətləri yayırlar. Şuşada keçirilən "Xarıbülbül" festivalı da 2 ölkə - Azərbaycanla Ermənistan arasındakı fərqi ortaya qoymaq üçün gözəl bir imkan yaratdı. Dünya, əgər gözlərini yummamışdırlasa, əlbəttə, gördü ki, biri dağıdıcı, fəlakət gətirən, digəri isə qurucu, mədəniyyət, inkişaf gətirən ölkədir. Qaldı ki, Aqil müəllimin təklifinə, mən bu təkliflə ikiəlli razıyam. Yurd yerlərimiz yenidən qurulmamış yerli əhaliyə imkan yaratmaq lazımdır ki, öz evləri - evlərinin xarabalıqlarını diri gözlü görsünlər. İndiyədək köçkünlər bilirsiz, hansı çətinliklərə, hansı xəstəliklərə sinə gəriblər, təki torpaqların işğaldan azad edildiyini görsünlər?! Xərçənglə savaşıblar, ürəklə savaşıblar... 100 cür xəstəlikdən özlərini qoruyub, doğma yurda saxlayıblar. Bu ümidlə yaşayan minlərlə adam var ki, gedib ev-eşiyini görəcək. Lap dağılmış, uçurulmuş, ot basmış olsun, fərq etmir. İnsanlar var, o torpaqda balasını dəfn edib gəlib, balasının hansısa əzaları basdırılıb. Şəhid balası uyuyur o torpaqda. Şəhidlərin valideynləri, övladları, həyat yoldaşları onları ziyarət etmək istəyir. Torpaq ilk növbədə onların haqqıdır. 1988-dən bəri şəhid olanların ailələri, övladları getməlidir ora. Salatın Əsgərovanın oğlu anasının şəhid edildiyi torpağı niyə gedib görməməlidir?! Mən də bu təkliflə razıyam ki, turlar təşkil olunsun. İlk növbədə şəhid ailələrinə, qazilərə, onların ailə üzvlərinə şərait yaradılsın, gedib o torpaqları ziyarət etsinlər. O cümlədən də ixtiyar insanlar. Qocalar, ahıllar. Bu, onlar üçün böyük təsəlli olar. Allahdan möhlət alan insanlar var! Onları doğma torpağı, ocaqlarını ziyarət haqqından məhrum etmək olmaz. Mənim anam sağ olsaydı, mütləq bir yol tapıb onu Ağdama aparacaqdım... Anam 2013-cü ilə qədər, gözünə yuxu gedəndə Ağdamı görürdü, səhər qalxanda dua edirdi. Aparmaq lazımdı ahılları, yaşlı insanları o torpaqlara. Qoy ayaqları doğma torpağa dəysin. Ağdamlı Səmayə nənəni Azərbaycan əsgəri Ağdama apardı, Ağdam Cümə məscidini ziyarət etdi, məscidin divarlarına üzünü sürtdü. Bundan böyük xoşbəxtlik olarmı?! Bizim əsgərlər Səmayə nənəni Ağdama aparmaqla Ağdamı almaq qədər böyük savab iş gördülər. Eləcə də bütün ahıl, yaşlı insanlara bu imkan yaradılmalıdır. Səfərlər təşkil olunsun və qalib əsgərimiz müşayiət etsin insanları, ahıllarla birgə getsinlər. Əlbəttə, təhlükə mütləq nəzərə alınmalıdır. Bilirik ki, mənfur qonşularımız hər addımda mina basdırıb. Hər sakinə bir mina "hədiyyə" qoyublar. Xüsusilə də qəbiristanlıqlarda. Bilirlər ki, Azərbaycan xalqı ölüsünə hörmət qoyandı, dədə-nənəsini ziyarət etmək istəyəcək. Ona görə qəbiristanlıqları da minalayıblar. Ona görə də ziyarətə gedənlər icazə verilməyən ərazilərə keçməsinlər.

*"Bizim əsgərlər Səmayə nənəni Ağdama aparmaqla Ağdamı almaq qədər böyük savab iş gördülər. Eləcə də bütün ahıl, yaşlı insanlara bu imkan yaradılmalıdır. Səfərlər təşkil olunsun və qalib əsgərimiz müşayiət etsin insanları, ahıllarla birgə getsinlər"*

**Q.Ağsəs Ağdamda həyata keçiriləcək yenidənqurma işləri barədə də fikrini bildirib:**

- Tikintilərə başlanır. Mən bunu, bəziləri kimi faciə ilə qarşılamıram. Ağdam 28 il əvvəl işğal olunmasaydı, bu gün orda da Bakıda olduğu kimi müasir tikililər, mehmanxanalar, istirahət zonaları, hündürmərtəbəli binalar olacaqdı. Necə ki, ölkəmizin işğal görməmiş başqa zonalarında bunlar var. Çağdaş insana nə verməliyik? İşıq, qaz, su, kanalizasiya xətləri, telefon, internet... İndi internetsiz bir bölgə təsəvvür edə bilirsiniz? Telefonsuz insan təsəvvür edə bilirsiniz? Bütün bu kommunikasiyaların yaradılması üçün də ağıllı layihələr olmalıdır. Olacaq da, inşallah. Ağdam yenə ən inkişaf etmiş, ən baxımlı, iqtisadi güclü şəhər olacaq.

**Mələhət Rzayeva**

# Son sutkada 8 nəfər vəfat edib

## Azərbaycanda 176 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycanda bu gün koronavirus infeksiyasına 176 yeni yoluxma faktı qeydə alınıb, 475 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

"Şərq" xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.

Son sutkada 8 nəfər COVID-19-dan vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 334 min 132 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 325 min 045 nəfər müalicə olunaraq sağalıb, 4921 nəfər vəfat edib. Aktiv xəstə sayı 4171 nəfərdir.

*Ötən müddət ərzində 3 milyon 523 min 638 test aparılıb. Bugünkü test sayı isə 9649-dur.*

# Fotolar göz qamaşdırdı

## Təlimlərə Türkiyə ordusu komandanlıq edib



**Bir aydır Moskvanı narahat edən NATO-nun Qara dənizdəki "Avropanın müdafiəsi - 21" adlı hərbi təlimlərinin Rumıniyadakı bölümünə Türkiyə ordusu rəhbərlik etməkdədir. Təlimlərdə 1356 türk əsgəri ilə yanaşı Türkiyə istehsalı olan 214 zirehli hərbi vasitələr də sərgilənir.**

"Şərq"ə qəzeti Türkiyənin "Milliyet.com.tr" saytına istinadən xəbər verir ki, 26 NATO ölkəsinin 16 dövlətdə keçirdiyi hərbi təlimlər zamanı Rusiya silahlı qüvvələri ilə "zarafat" da edilib. Öncə ABŞ-a məxsus PUA rus savaş gəmisinə yaxınlaşıb. Ardınca amerikalılar Estoniya-Rusiya sərhədində raket artilleriyasını sınaqdan keçiriblər. Bu hərəkətlər gözlənildiyi kimi Kreml tərəfindən təhdid kimi dəyərləndirilib və sərt bəyanat verilib. Lakin hərbi blok türk əsgərinin böyük rol oynadığı təlimlərdə hədəfin Rusiya olmadığını söyləyib. NATO rəsmisi Mirkea Qeoana bildirib ki, təlimlər birbaşa hansısa ölkəyə qarşı yönəlməyib. Amma NATO öz müttəfiqlərini hər cür təhlükəyə qarşı qorumağa hazırdır: "Əlbəttə, Rusiya addımlarımızı diqqətlə izləyir. Sadəcə onu vurğulamaq istəyirik ki, biz öz müttəfiqlərimizin ərazilərini müdafiə etməkdə çox qərarlıyıq. Dünyanın bir çox bölgəsində genişmiqyaslı hərbi təlimlər keçirmək imkanlarımız var. Bu da bir mesaj kimi dəyərləndirilə bilər".

*Rusiya bu təlimlərdə hədəfin Moskva olduğundan əmindir. Rusiya Müdafiə naziri Sergey Şoyqu bildirib ki, NATO təhdidinə qarşı ilin sonunadək qərb sərhədlərinə 20-yə yaxın yeni hərbi bazalar qurulacaq:* "Qərbli məsləkdaşlarımızın hərəkətləri dünyadakı təhlükəsizlik sistemini yerləbir edir. Qərb bizi məcbur edir ki, onun təhdidlərinə qarşı müəyyən tədbirlər görək. Rusiyaya qarşı təhdid böyükdür. NATO ölkələrinin Rusiya sərhədinin yaxınlığındakı hərbi fəallığı narahatlıq doğurur".

**İsmayıl**

# Dövlət Dumasının sədri minnət qoyur

*Volodin demək istəyir ki, SSRİ olmasaydı Ukrayna və Baltikyanı ölkələr Almaniyanın əsarəti altında olacaqdı*



"Keçmiş sosialist düşərgənin ölkələri, eləcə də Ukrayna və Baltikyanı ölkələr Rusiyaya çox şeyə borcludurlar və ona hər şeyə görə minnətdar olmalıdırlar". Bunu Rusiya Dumasının spikeri Vyaçeslav Volodin öz teleqram kanalında paylaşıb.

"Bu dövlətlər sosialist ölkələri siyahısına daxil olanda başqalarının hesabına yaşamağa vərdiş ediblər. Vərdişləri hələ də qalıb. Onların suverenliyi və müstəqilliyi sözdə yox, əməldə olmasaydı, bu saxlanmazdı. Rusiya bu ölkələrə heç nə borclu deyil, amma onlar borcludurlar", - deyə o bildirib. Volodinin sözlərinə görə, bu ölkələr məhz Rusiyanın SSRİ-nin borclarını ödəməyi üzərinə götürdüyünü unutmamalıdırlar.

**Mövzuya münasibət bildirən politoloq Natiq Miri "Şərq"ə açıqlamasında bildirib ki, Volodin bu açıqlamasıyla ümumiyyətlə, bütün SSRİ-ni təşkil edən respublikaları, yəni postsovet məkanında olan bütün ölkələri nəzərdə tutur. Politoloq qeyd edib ki, bu da onunla bağlıdır ki, həmin ölkələrin elmi, mədəni və texnoloji inkişafı bilavasitə Rusiya ilə əlaqəlidir:** "Rusiya dolayısıyla həmin bölgələrin və ölkələrin inkişafında ciddi rol oynayıb. Yəni onlara böyük maliyyələr, vəsaitlər xərcləyib. Ayrıca həmin ölkələrin təhlükəsizlik məsələsində də Rusiya dolayısıyla iştirak edib. Volodin bu açıqlamasıyla həm də İkinci Dünya müharibəsi dönəmində almanların az qala bütün Avropanı və Avrasiyanı işğal etməsi hadisəsindən bu bölgələrin qoruması məsələsini əsasən hədəf seçir. Çünki bildiyiniz kimi, SSRİ olmasaydı, həqiqətən də Baltikyanı ölkələr, eyni zamanda Ukrayna Almaniyanın əsarəti altında olacaqdı. Doğrudur, gələcək perspektiv necə ola bilərdi barədə hələlik, bunu müəyyən etmək, proqnozlaşdırmaq o qədər də asan deyil. Ancaq hər bir halda irqçi, şovinist bir hakimiyyətdən və dövlətdən söhbət gedirdi. Yəni 1939-45-ci illər arasında Almaniyadakı faşizm rejiminin bütün dünyanın başına açdığı oyunları kimsə unutmayıb. Fikrimcə, bu məsələlərin içərisində Volodin bir də bu məsələni xüsusilə nəzərdə tutub. Çünki Ukraynanın böyük əksəriyyəti alman faşist dövləti tərəfindən zəbt olunmuşdur. Eyni zamanda Baltikyanı ölkələr də alman faşistlərinin işğalı altında idi. Söhbət ondan gedir ki, bu işğal faktı qurtarandan sonra Ukrayna və Baltikyanı ölkələr dolayısıyla SSR-nin işğalı altında qaldı. Qeyd edim ki, Avropa çox sürətlə inkişaf edərkən bu ölkələr, açığı, SSR-nin tərkib hissəsində o qədər də inkişaf edə bilmədilər. Çünki SSR-də avtoritet bir idarəetmə üsulu hökmran idi. Və İkinci Dünya müharibəsindən sonra, yəni 1953-cü ilə qədər həqiqətən də Stalin zülmü altında bu respublikalar əzilməyə davam edirdi. Daha sonra bu ölkələr Xruşşov dönəmində bir acılıq dövrünü yaşadı. Xatırladım ki, Ukraynada 3 milyondan yuxarı insanlar yalnız aclıq, səfalət içində məhv oldular. Hesab edirəm ki, Volodin bu faktları da nəzərdən qaçırmayıb. Ona görə də düşünürəm ki, bu bir minnət payıdır".

"Doğrudur, İkinci Dünya müharibəsində müəyyən mənada bu ölkələr qorundu. Ancaq onu da nəzərə alaq ki, təkcə Azərbaycandan 600 min oğul və qız müharibədə iştirak etmişdir ki, bundan da 300 mini geriyə qayıtmamışdır"

*N.Miri qeyd edib ki, SSR-nin bu ölkələrə verdiyi töhfə o qədər də böyük deyil:* "Doğrudur, İkinci Dünya müharibəsində müəyyən mənada bu ölkələr qorundu. Ancaq onu da nəzərə alaq ki, təkcə Azərbaycandan 600 min oğul və qız müharibədə iştirak etmişdir ki, bundan da 300 mini geriyə qayıtmamışdır. Ayrıca müharibə təkcə elə-belə udulmamışdır. Bilirsiniz ki, Azərbaycanın nefti olmasaydı, SSRİ həqiqətən də alman faşizm ordusu qarşısında dirənə bilməzdi".

**Aynurə Pənahqızı**



## Dünya liderlərinin görüşündə nəticə olmayacaq

"ABŞ-la Rusiya arasındakı gərginlik davam edəcək"

**"Qarşıdakı 20 gün ərzində Azərbaycanın gələcək siyasətinin müəyyənləşməsinə çox ciddi təsir edəcək önəmli hadisələr yaşanacaq: iyunun 14-də Brüsseldə keçiriləcək NATO-nun Zirvə görüşünə qatılmaq üçün Avropaya gələn ABŞ Prezidenti Bayden əvvəlcə Türkiyə Prezidenti Ərdoğanla, iyunun 16-da Cenevrədə isə Rusiya Prezidenti Putinlə görüşəcək".**

Bu sözləri "Ədalət" Partiyasının siyasi məsələlər üzrə müavini Elxan Şükürlü deyib.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə düşünür ki, görüşlərdən ciddi nəticə gözləmək lazım deyil. O, "Şərq"ə açıqlamasında fikirlərini belə izah edib:** "Prezidentlərin bəzi görüşləri dünya nizamını dəyişsə də, sözügedən dialoqların ciddi dəyişiklik yaradacağına inanmıram. Belə demək mümkünsə, bunlar görüş xətrinə görüşdür. Hər halda ABŞ-la Rusiya arasındakı gərginlik davam edəcək. Həmçinin ABŞ-la Türkiyə arasındakı münasibətlərdə də ciddi dəyişiklik olmayacağı qənaətindəyəm. Sadəcə, Bayden qondarma erməni soyqırımını tanısa da, Ankara ilə münasibətlərin pozulmasını istəmir. Bütün hallarda ciddi irəliləyişlər gözlənilmir".

**Kənan**



## Siyasi xaos davam edir

"Başqa bir siyasətçi baş nazir seçiləcək"

**Ermənistanda növbədənkənar seçkilərə bir aydan az vaxt qalıb.**

Təkcə Baş nazir vəzifəsini icra edən Nikol Paşinyan deyil, həm də müxalifət, o cümlədən "Qarabağ klanı" təbliğat kampaniyası aparır. Maraqlıdır, seçkilər nə ilə nəticələnəcək?

**Politoloq Əhməd Əlili proqnozlarını "Şərq"lə bölüşüb:** "Əlbəttə, Paşinyanın şansı daha çoxdur. Amma məlum olduğu kimi, Ermənistanda parlament seçkilərində bloklar iştirak edir. Ola bilsin, Paşinyanın bloku qalib gəlsə belə, onun blokundan başqa bir siyasətçi baş nazir seçiləcək. Xüsusilə Ararat Mirzəyan üçün bu cür ehtimal var. Hər halda kimin qalib gəlməyindən asılı olmayaraq, Ermənistanda siyasi xaos hələ uzun müddət davam edəcək".

**Kənan**

# Ermənilərin Gürcüstana qaçması çarəsizliyin son həddidir

*Bu ölkəyə keçənlər erməni cəmiyyətinin ən aşağı təbəqəsidir. İmkanı olan ermənilər isə Rusiya, Fransa, Amerikaya gedirlər*



Bir qrup Ermənistan vətəndaşı sərhədi qeyri-qanuni şəkildə pozaraq Gürcüstanın Dmanisi rayonunun Yırğançay, Boğazkəsən və Orzuman kəndlərinə daxil olublar. Sərhədi qanunsuz keçdikləri üçün saxlanılan ermənilər Ermənistanda, yaxud Qarabağda səfalətdən ölməkdənsə, Gürcüstanda həbsdə qalmağın daha yaxşı olduğunu deyiblər.

Bir neçə erməni kənd ərazisində gizlənməyə çalışsa da, sərhəd polisi tərəfindən həbs olunub. Kənd sakinlərinin sözlərinə görə, ermənilər məlum istiqamətdən Gürcüstan tərəfə keçməyə dəfələrlə cəhd göstəriblər. Onlar istənilməyən "qonaqlardan" narahatlıq duyduqlarını və hökumətin bu işə əncam çəkməsini tələb ediblər. Deyiblər ki, ermənilər normal yaşayış üçün başqa ölkələrə üz tutmalıdır, çünki qonşu Gürcüstanda da vəziyyət qənaətbəxş deyil.

**Politoloq Azər Qasımov "Şərq"ə bildirib ki, Ermənistandakı siyasi-iqtisadi durumun acınacaqlı olmasının sübuta ehtiyacı yoxdur. Analitikin sözlərinə görə, ermənilər gələcəklərinin olmadığını aşkar görürlər:** "Ermənistandan qaçmağın son çarə olduğunu hesab edən ermənilərin Gürcüstana keçməsi çarəsizliyin son həddidir. Gürcüstana keçənlər erməni cəmiyyətinin ən aşağı təbəqəsidir. İmkanı olan ermənilər isə Rusiya, Fransa, Amerikaya gedirlər. Aciz durumda olanlar isə əlacsızlıqdan Gürcüstana üz tuturlar. Bu isə erməni dövlətinin məhv olması anlamına gəlir. Ermənistan dövlətinin və cinayətkar hökumətlərin əməllərinin cəzasını erməni xalqı çəkməkdədir. Azərbaycan uzun illər erməni cəmiyyətini doğru yola çağırmaqla onlara xəbərdarlıq edib. Hər dəfə torpaqların azad edilməsindən danışanda, qonşuluq əlaqələrinin bərpa olunmasından da söz açır, ermənilərin rifah yolunun bunda olduğunu bildirirdik. Əks halda vəziyyətin daha acınacaqlı olacağını proqnozlaşdırır, məhz indiki günləri nəzərdə tuturduq. Gürcüstan hökuməti öz ərazisində olan erməni əhalidən az çəkməyib. Belə vəziyyətdə Ermənistandan qaçan ermənilərə qucaq açmayacaqlar. Tiflis hökuməti onlara sığınan bütün erməniləri geri göndərəcək. Mövcud şəraitdə Gürcüstana əlavə, özü də erməni kimi başağrısı lazım deyil".

**İsmayıl Qocayev**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**





# Zəngəzur dəhlizi Azərbaycan gündəliyinin ön sıralarındadır

## Artıq layihənin həyata keçirilməsi ilə bağlı işlərə başlanıb

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

2021-ci il yanvarın 11-də Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri arasında imzalanmış üçtərəfli sənəddə prioritet hədəf nəqliyyat kommunikasiyasının yaradılması və iqtisadi layihələrin həyata keçirilməsidir. Regionda gerçəkləşdiriləcək ən strateji nəqliyyat infrastrukturu Zəngəzur dəhlizi ilə bağlıdır. Azərbaycanın qərb hissəsi ilə Naxçıvan arasında dəmir yolunun və nəqliyyat əlaqəsinin yaradılması bütövlükdə tarixi İpək yolunun cəlbediciliyinin artmasına xidmət edəcək.

Mühüm geoiqtisadi layihənin reallaşması isə sadəcə Azərbaycan üçün deyil, region ölkələri üçün olduqca perspektivlidir. O baxımdan burada dünyanın aparıcı ölkələrinin də geoiqtisadi maraqları var. Əlbəttə, burada cılız, heç bir potensiala malik olmayan Ermənistanın hansısa maneə xarakterli addımları prosesə təsir göstərə bilməz. Azərbaycan tərəfi birmənalı şəkildə Zəngəzur dəhlizindən dəmiryolu və avtomobil yolunun çəkilməsini istəyir. Bu yol həm Azərbaycanın böyük hissəsini Naxçıvanla əlaqələndirəcək, həm də Naxçıvan üzərindən Türkiyə ilə birbaşa dəmiryolu və avtomobil əlaqəsi qurulacaq. Xatırladaq ki, Qarabağ münaqişəsindən əvvəl bu dəhliz istifadə olunub, amma münaqişədən sonra Naxçıvanla quru əlaqəsi, ancaq İran ərazisindən keçməklə olub.

Prezident İlham Əliyev Türkiyənin Nəqliyyat və infrastruktur naziri Adil Karaismailoğlunu qəbul edərkən regional kommunikasiyaların bərpasından, xüsusən Zəngəzur dəhlizinin reallaşmasından da bəhs edib. Dövlət başçısı vurğulayıb ki, nəqliyyat sahəsi həmişə gündəliyimizdə ön sıralardadır. Ölkə rəhbərinin sözlərinə görə, İkinci Qarabağ savaşından sonra bunun önəmi daha da artıb: "Əvvəlki illərdə birgə həyata keçirdiyimiz layihələrlə yanaşı, yeni layihələr də artıq masa üzərindədir. İkinci Qarabağ savaşından sonra biz yeni bir koridor üzərində çalışırıq - Zəngəzur koridoru. Artıq beynəlxalq müstəvidə də bunun adı məhz Zəngəzur koridoru kimi təsbit edildi. Bu da Türkiyə ilə Azərbaycan arasında yeni bir bağlantını təmin edəcək. Bildiyiniz kimi, müharibədən sonra ilk mərhələdə Ermənistan bu məsələ ilə bağlı öz etirazını bildirmişdi. Ancaq son vaxtlar mənə məlumat verilir ki, Ermənistan tərəfi də artıq bu koridorun qaçılmaz olması ilə bağlı məsələləri düzgün təhlil edir. İndi üçtərəfli çərçivədə müzakirələr aparılır. Azərbaycan, Rusiya, Ermənistan baş nazirlərinin müavinləri səviyyəsində işçi qrup çərçivəsində bu məsələ müzakirə edilir və yaxşı nəticələr də var. Biz artıq azad edilmiş torpaqlarda Horadizdən Ermənistan sərhədinə qədər dəmir yolunun çəkilişinə start verdik. Əminəm ki, yaxın iki il, bəlkə iki il yarım ərzində o dəmir yolu tam istismara veriləcək". Prezident vurğulayıb ki, Naxçıvan dəmir yolunun böyük hissəsi fəaliyyətdədir və çatışmayan hissə də inşa ediləcək: "Bütün təlimatlar verilib. Ermənistan ərazisində Zəngəzur koridorunun önəmli hissəsi inşa edilməlidir. Beləliklə, yeni bir koridor açılacaq və Türkiyə-Azərbaycan arasında bu bağlantı daha da möhkəm olacaq".

**"Zəngəzur dəhlizinin açılması Azərbaycanın tarixi ədaləti bərpa etməsinə xidmət edəcək"**

Ölkə rəhbəri mayın 20-də "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı müzakirələrdə çıxışı zamanı da bildirib ki, Zəngəzur dəhlizi regionun iqtisadi mənzərəsini dəyişəcək. Dövlət başçısı diqqətə çatdırıb ki, artıq sözügedən layihənin həyata keçirilməsi ilə bağlı işlərə başlanılıb: "Azərbaycan bu məqsədlə artıq texniki və maliyyə imkanlarını ayırıb. Zəngəzur dəhlizi açıldıqdan sonra bütün region ölkələri üçün yeni imkanlar yaranacaq". Ölkə rəhbəri mövzu ətrafında danışarkən Ermənistanın da bu şansdan yararlana biləcəyini vurğulamışdı: "Biz Azərbaycanın nəqliyyat məsələlərində, xüsusilə Zəngəzur dəhlizinin açılması məsələləri ilə bağlı əməkdaşlıq təklif etmişik. Eyni zamanda, Ermənistanın iki yaxın dostu ilə - Rusiya və İranla dəmir yolu əlaqəsi olacaq. Bu dəmir yolu əlaqəsi mövcud deyil. Beləliklə, biz bunu təklif etdik və sizə deyə bilərəm ki, proses gedir. Proses başlayıb, bu, asan deyil, lakin başlayıb".

Dövlət başçısı Zəngəzur layihəsi barədə çıxışında sözügedən dəhlizin açılması nəticəsində Ermənistanın normal inkişafa qədəm qoyacağını beynəlxalq ictimaiyyətin də nəzərinə çatdırıb: "Onların heç kimlə dəmiryolu əlaqəsi yoxdur. Ona görə də heç kim investisiya qoymur. Bu, onlar üçün imkanlar açacaq. Amma öz seçimlərini etməlidirlər".

Xatırladaq ki, Ermənistan Baş naziri səlahiyyətlərini icra edən Nikol Paşinyan da Azərbaycanla dəmiryol əlaqəsindən danışıb. Seçki öncəsi tərəfdarları ilə görüşən Paşinyan vurğulayıb ki, nəqliyyat kommunikasiyalarının bərpası ilk növbədə fəaliyyət göstərən dəmiryol kommunikasiyalarının açılması deməkdir. Onun sözlərinə görə, Ermənistan üçün prioritet dəmiryol xətlərinin bərpası və yenidən açılmasıdır: "Dəmiryol rabitəsi MDB tərəfindən təsdiqlənmiş müqavilələr çərçivəsində hərəkət üçün beynəlxalq standartlara uyğun olmalıdır".

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə açıqlamasında bildirib ki, Zəngəzur dəhlizinin açılması Azərbaycanın tarixi ədaləti bərpa etməsinə xidmət edəcək.** Professorun sözlərinə görə, yüz ilə yaxındır ayrı düşdüyümüz Naxçıvanla quru yoluyla birləşəcəyik. Eyni zamanda qardaş Türkiyə ilə torpaq üzərindən əlaqəmiz təmin olunacaq: "Zəngəzur dəhlizi tranzit ölkə kimi Azərbaycana siyasi-iqtisadi faydalar verəcək. Rusiya və Mərkəzi Asiya ölkələri Azərbaycan üzərindən birbaşa Yaxın və Orta Şərqə çıxış əldə edəcəklər. Azərbaycan bölgədə sadəcə Cənubi Qafqazın deyil, bütövlükdə Qafqazın lider ölkəsinə çevriləcək. Burada Rusiya, Türkiyə, Azərbaycan üçlüyü mühüm rol oynayacaq. İran da bu dəhlizdən yararlanacaq. Dəhliz Rusiya və Ermənistan üçün də çox lazımlıdır. Ermənistan tamamilə blokadadadır. Siyasi və iqtisadi cəhətdən təcrid olunmuş vəziyyətdədir. Ermənistan bütün blokadaları Zəngəzur dəhlizinə imkan yaratmaqla tezliklə aradan qaldıra bilər".

*C.Nuriyev vurğulayıb ki, Ermənistanda seçkiyə qədər Paşinyanın əleyhinə olan müxalif qüvvələr bu dəhlizin açılmasına qarşı çıxış edəcəklər. Amma dəhlizin önəmi o qədər çoxdur ki, Ermənistanda hansısa müxalif qruplar bunun reallaşmasına mane ola bilməz:* "Hətta seçkidə Paşinyan məğlub olarsa, onun yerinə Rusiyaya yaxın adam gələrsə, dəhlizin açılması daha da sürətlənər. Ümumiyyətlə, Ermənistan bir dövlət kimi mövcud deyil. Daha doğrusu, Rusiyanın bir nömrəli "dalan dövləti", vassalıdır. İrəvanda son qərar Moskvadan verilir, Rusiya isə təbii olaraq öz maraqlarını güdür. Nəzərə alaq ki, Ermənistanın bütün infrastrukturu Rusiyanın əlindədir. Bu da o deməkdir ki, Zəngəzur dəhlizinin işə düşməsində Ermənistan bir dövlət kimi müqavimət göstərə bilməyəcək. Zəngəruz dəhlizinin açılması Çindən başlayan Böyük İpək yolunun birmənalı reallaşması ilə nəticələnəcək. Bu da Azərbaycanın növbəti meqalayihəsidir. Prezident bu layihənin həyata keçirilməsində həddindən artıq maraqlı və israrlıdır. Dövlət başçısı öz iradəsini ortaya qoyub".

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə deyib ki, Prezident İlham Əliyev hələ martın 6-da cəmiyyətdə "Naxçıvan dəhlizi" adlandırılan, Naxçıvanı Azərbaycanla birləşdirən nəqliyyat kommunikasiyasını Zəngəzur dəhlizi elan etdi. Hədəf isə heç də sirr deyil:** "10 noyabr razılaşmasında "dəhliz" və ya "Zəngəzur" ifadəsi yer almayıb. Onun sözlərinə görə, Paşinyan daxili auditoriyanı sakitləşdirmək, opponentlərinin ittihamlarına cavab vermək üçün "Mehridən dəhliz keçmir", "Zəngəzur dəhlizi yoxdur" sözlərini dedikdə bu layihənin olmaması yox, üçtərəfli razılaşmada belə ifadələrin yer almamasına istinad edir. Razılaşmaya belə ifadənin salınmaması böyük ehtimalla Paşinyan hakimiyyətinin prosesin icrası zamanı daxili siyasətdə çətin vəziyyətə düşməməsinə hesablanıb. Bakı üçün vacib olan istədiyi nəticəyə nail olmaqdır. Nəqliyyat kommunikasiyasının beynəlxalq müstəvidə Zəngəzur dəhlizi kimi təsbit edilməsi hədəfə doğru atılan ciddi addımlardan biri hesab oluna bilər. Birincisi, Zəngəzur dəhlizi ifadəsinin geosiyasi leksikona daxil edilməsi Zəngəzurun Azərbaycanın tarixi torpağı olması faktını yenidən aktuallaşdıra bilər. İkincisi, bu, Azərbaycanın Zəngəzura qayıdış hədəfinin beynəlxalq müstəvidə legitimləşdirilməsinə zəmin yarada bilər. Üçüncüsü, dünya Zəngəzur dəhlizindən danışdıqca, Zəngəzur və onun tarixi gündəmdə qalacaq və bu, tarixi torpağa qayıdış strategiyasında olduqca əhəmiyyətlidir".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Problem böhran həddinə çatıb

## *Döyüşüb yaralanan qazilər təftiş edilir, incidilir*

"Həqiqətən də müharibədə olmadan əlillik dərəcəsi alıb, qazi kimi pensiya alan adamlar var, bu gün onların əlilliyi ləğv edilməyib. Ancaq Qarabağda döyüşüb yaralanmış qazilərin əlilliyi ləğv olunub. Biz Qazilər Birliyi və bu yöndə olan təşkilatlar Sahil Babayevlə görüş istədik, üzərindən 3 ay keçib, görüş hələ baş tutmayıb".

Bu sözləri Qarabağ Qaziləri Birliyinin mətbuat xidmətinin rəhbəri, Qarabağ qazisi Rey Kərimoğlu feysbuk hesabında paylaşıb. **Qazinin statusuna geniş reaksiya olduğundan məsələni bir daha dəqiqləşdirmək ehtiyacı duyduq. R.Kərimoğlu ”Şərq”ə açıqlamasında problemin həlli üçün qanunverici bazanın dəyişməli olduğunu dedi:**

- Statusa yazılan cavablarda qeyd edilirdi ki, əlilliyin təyinatında problem var. Və bunun çox az hissəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə aiddir. Razıyam. Lakin problem böhran həddindədir artıq. Qanunverici bazada dəyişiklik edilməsə, problemin həllinə nail olunmayacaq. Bunu dəfələrlə demişik ki, bizim - təşkilatımızın Sahil Babayevlə normal münasibəti olub. Və çalışmışıq bu belə də qalsın, amma nazirliyin rəsmilərinin fəaliyyəti, qaldırdığımız bütün məsələlərin qulaqardına verilməsi, nazirlə müharibə yönümlü təşkilatların vaxtında görüşə bilməməsi vəziyyəti get-gedə kəskinləşdirir. Allah daha pisindən saxlasın. Biz əvvəldən də demişik ki, müharibədə olmaya-olmaya müəyyən adamlar sənədlərini saxtalaşdıraraq Qarabağ əlili statusu alıb. Onların heç birinə Sahil Babayev dəyməyib, əvəzində döyüşüb, yaralanan Qazilər təftiş edilir, incidilir. Bu da qəbuledilməzdir. Qaldırdığımız məsələnin əsas kökü də Müdafiə Nazirliyindədir. Onlar isə kənarda qalıb. Bunu BMM də nazir Sahil Babayevlə ilk görüşümüzdə də demişik. Amma həm nazir, həm Fazil Talıbov başqa şeylərdən danışır. Söhbət qənaətdən gedirsə, ən böyük qənaəti dediyimiz yerlərdə etmək olar. Bu gün Sahil Babayevi həqiqət və ədalət uğrunda mübariz kimi təqdim edirlər. Bu da çox yanlışdır. Çünki onun bu doğru olmayan fəaliyyəti ancaq Qaziləri dövlətdən narazı salır. Sanki qəsdən edir.



"Gənc yaşlarında sağlamlığını müharibədə itirmiş qazilərin indi 45-60 yaşı var. Bu insanların pensiya təminatını dayandırmaq onlara qarşı savaş açmaqdan başqa bir şey deyil"

Gənc yaşlarında sağlamlığını müharibədə itirmiş qazilərin indi 45-60 yaşı var. Bu insanların pensiya təminatını dayandırmaq onlara qarşı savaş açmaqdan başqa bir şey deyil. Əgər sağlam olsaydılar polisdə, hərbidə, başqa sahələrdə çalışıb indi rahat şəkildə həyatlarına davam edərdilər. Yanvar ayından təqaüdü kəsilən qazilərimiz var. Onlar hansı vəsaitlə dolanmalıdır, ailələrini necə saxlamalıdır? İndi iyun ayıdır, amma təqaüdlər bərpa olunmayıb. Bəs bu insanlar necə, nəylə yaşasın?

*R.Kərimoğlu bir daha vurğuladı ki, son zamanlar sosial şəbəkələrdə və mediada ”Qarabağ qaziləri” Birliyi adından istifadə edirlər. Belə adamlarla QQİB-nin heç bir əlaqəsi yoxdur:*

- Müəyyən bir qrup insanlar var ki, onlar öz şəxsi mənafeləri üçün ”Qarabağ qaziləri” İctimai Birliyi adından istifadə edərək, qeyri-qanuni yolla idarə və təşkilatlara təzyiqlər göstərir, xoşagəlməz hadisələr törədirlər. Bu kimi halları, qanunsuzluqları pisləyirik. Əldə etdiyimiz məlumatlara görə, ayrı-ayrı təşkilat rəhbərləri özlərini ”Qarabağ qaziləri” İctimai Birliyinin ”sədri” və ya ”səlahiyyətli nümayəndəsi” kimi təqdim edir. ”Qarabağ qaziləri” İctimai Birliyi rəsmən bəyan edir ki, bu qanunsuz hərəkətləri törədənlərin ”Qarabağ qaziləri” İctimai Birliyinə heç bir aidiyyəti yoxdur. ”Qarabağ qaziləri” Birliyinin sədri Qarabağ qazisi Asəf Əliyevdir. Onun rəhbərliyi altında ”Qarabağ qaziləri” Birliyi torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə öz sağlamlıqlarını itirmiş müharibə əlillərinin sosial-iqtisadi vəziyyətini, maddi rifahlarının yaxşılaşdırılması və hüquqlarının qorunması istiqamətində çalışan ictimai təşkilatdır. Və bu istiqamətdə də öz fəaliyyətini davam etdirir.

**Məlahət Rzayeva**



# Pandemiya ilə bağlı vəziyyət tam nəzarət altındadır

## *“Mübarizənin Azərbaycan nümunəsi cəlbedici və spesifik model kimi beynəlxalq arenada diqqət mərkəzində saxlanılır”*

"XX əsrin üçüncü onilliyində bəşəriyyət olduqca mürəkkəb situasiyanın fonunda yeni qlobal çağırışla üzləşib. Daha dəqiq desək, yeni növ koronavirus (COVID-19) infeksiyasının sürətlə yayılaraq ölkələri cənginə alması ciddi qlobal problemlərin və qeyri-müəyyənliyin meydana çıxmasına səbəb olub.

Bir çox inkişaf etmiş dövlət səhiyyə böhranı və sosial-iqtisadi problemlərlə üz-üzə qalıb. Ona görə də pandemiya şəraitində qlobal təşəbbüslərin irəli sürülməsi, səylərin birləşdirilməsi ehtiyacı meydana çıxıb". **Bu fikirləri ”Şərq”ə açıqlamasında politoloq Nurlan Qələndərli deyib. Onun sözlərinə görə, Azərbaycan dövləti tərəfindən pandemiya ilə mübarizə çərçivəsində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər ölkəmizdə vəziyyəti nəzarət altında saxlamağa imkan verib. Eyni zamanda, Azərbaycan Cənubi Qafqazda ilk olaraq vaksinasiya işlərinə start verib:** ”Koronavirus pandemiyasının müşahidə edildiyi dönəmdə Prezident İlham Əliyev tərəfindən qlobal əhəmiyyətə malik təşəbbüslər irəli sürülüb. Regional və beynəlxalq səviyyədə resursların səfərbər olunması zərurəti dünya ictimaiyyətinin diqqətinə çatdırılıb. Dövlət başçısı Ümumdünya Səhiyyə Assambleyasının 74-cü sessiyasında videoformatda çıxışı zamanı ”Azərbaycan pandemiyanın öhdəsindən gəlmək üçün həmişə güclü qlobal həmrəyliyin nümayiş etdirilməsinin əhəmiyyətini təbliğ etmişdir” -deyə bildirdi. Ümumiyyətlə, ölkəmizin mütərəqqi ideya və təşəbbüslərin beynəlxalq səviyyədə böyük maraqla və rəğbətlə qarşılanması Azərbaycana olan inam və etimadın daha bir bariz nümunəsidir. Azərbaycanın təşəbbüsü ilə Türk Şurasının və Qoşulmama Hərəkatının Zirvə görüşünün, BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi, Qoşulmama Hərəkatının Zirvə görüşündə COVID-19 ilə mübarizə ilə bağlı üzv dövlətlərin humanitar, tibbi ehtiyac və tələblərinə dair məlumat bazasının yaradılması üçün işçi qrupun təsis edilməsi də bu kontekstdə müstəsna əhəmiyyətə malikdir. Heç şübhəsiz, Azərbaycanın beynəlxalq həmrəyliyə və əməkdaşlığa xidmət edən təşəbbüslərlə çıxış etməsi qlobal strateji önəm daşıyır. Eyni zamanda, Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik edən bir ölkə kimi sosial və maddi problemlərlə üzləşmiş ölkələrə əl uzatması, 30-dan çox ölkəyə maliyyə və humanitar yardım göstərməsi, beynəlxalq təşkilatlara, o cümlədən ÜST-yə 10 milyon dollar məbləğində könüllü ianə verməsi və digər faktlar xüsusi qeyd edilməlidir. Bütün bunlar beynəlxalq səviyyədə yüksək qiymətləndirilir. Bütövlükdə, koronavirus pandemiyası ilə mübarizənin Azərbaycan nümunəsi cəlbedici və spesifik model kimi beynəlxalq arenada diqqət mərkəzində saxlanılır”.

**Aynurə Pənahqızı**

# Azərbaycan ABŞ-a neft məhsullarının ixracatını azaldıb

## *Ona görə iki ölkə arasında ticarət dövriyyəsi kəskin aşağı düşüb*



2021-ci ilin yanvar-aprel aylarında Azərbaycanla ABŞ arasında ticarət dövriyyəsi 335,5 milyon dollar təşkil edib ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 53 faiz daha azdır.

Bu barədə ”Trend”ə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə istinadən xəbər verir. Göstərilən dövrdə Azərbaycanın ABŞ-a ixracı 23,056 milyon dollar (3,8 qat artım), ABŞ-dan idxal isə 153,298 milyon dollar (13 faiz azalma) təşkil edib. Yanvar-aprel aylarında Azərbaycan ABŞ-a 23,014 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac edib. ABŞ-a qeyri-neft məhsulları ixracının Azərbaycanın qeyri-neft məhsullarının ümumi ixracındakı payı 3,3 faiz təşkil edib. Ümumilikdə, yanvar-aprel aylarında Azərbaycanın qeyri-neft ixracı 697,027 milyon dollar təşkil edib. 2020-ci ildə Azərbaycanın xarici ticarət dövriyyəsi 24,47 milyard dollar təşkil edib ki, bu da 2019-cu illə müqayisədə 26,5 faiz daha azdır. Xarici ticarət dövriyyəsinin strukturunda ixrac illik müqayisədə 30 faiz azalaraq 13,74 milyard dollar təşkil edib. İxracın il ərzində xarici ticarət dövriyyəsindəki payı 2,81 azalaraq 56,15 faizə düşüb. Azərbaycan idxalı 2019-cu illə müqayisədə 21,5 faiz azalaraq 10,73 milyard dollar təşkil edib. Xarici ticarət dövriyyəsində idxalın payı 2,81 faiz artaraq 43,85 faizə çatıb.

**İqtisadçı-ekspert Natiq Cəfərli ”Şərq”ə Azərbaycanla ABŞ arasında ticarət dövriyyəsinin yarıdan çox azalmasının səbəbləri barədə danışıb. İqtisadçı vurğulayıb ki, azalmanın əsas səbəbi keçən il bundan öncəki illərə nisbətən Azərbaycanın Amerikaya neft və neft məhsullarının ixracatının azalması-dır:** ”Çünki ötən illərdə çox az bir həcmdə də olsa Amerikaya müəyyən dərəcədə neft satışı həyata keçirilirdi. Keçən il neftə olan tələbatın kəskin düşməsi və Azərbaycanda da hasilatın azalması bu həcmlərin də azalması səbəb oldu. Nəticə etibarilə də ticarət dövriyyəsində azalmalar müşahidə olundu. Təbii ki, bunun siyasi amillərlə heç bir əlaqəsi yoxdur. Yəni həm pandemiyanın, həm də Azərbaycanın əsas ixrac məhsulu olan neftlə bağlı əməliyyatların coğrafiyasının bir az dəyişməsi belə bir şəraitin yaranmasına və ticarət dövriyyəsinin azalmasına səbəb olub”.

**Aynurə**

# "...Siz sağalacaqsınız"



## "Gözlərimi açanda yanımda ağ xalatlı gənc bir qız gördüm"

Aygün Ramil qızı İsmayılova - 1996-cı il martın 24-də Qəbələ rayonunda anadan olub. 2014-cü ildə Bakının Hövsan qəsəbəsindəki 281 saylı tam orta məktəbi, 2020-ci ildə Azərbaycan Tibb Universitetinin (ATU) Müalicə işi fakültəsini bitirib. İxtisasını artırmaq üçün hazırda Türkiyənin TUS imtahanına hazırlaşır. 2021-ci ildən FHN-nin Mərkəzi Modul tipli hospitalında fəaliyyət göstərir. Aygün xanımla elə həmin hospitalda tanış olduq.

Nə qədər qorunmağa çalışsam da, COVİD-19 virusuna yoluxdum. Bir neçə gün evdə müalicə olunmağıma baxmayarq, vəziyyətimin ağırlığı səbəbindən xəstəxanaya yerləşdirildim. Gecənin yarısı idi. Qızdırmadan yanırdım. Gözlərimi açanda yanımda ağ xalatlı gənc bir qız gördüm. Qeyr-ixtiyari onun qolundan tutub, ölürəm, dedim. Qız əllərini alnımda, sonra saçlarımda gəzdirdi, mehribancasına, qorxmayın, dedi: "Sizdən çox ağır xəstələri sağaldaraq evlərinə göndərmişik. Siz də sağalacaqsınız". Qızın inamla söylədiyi bu sözlərlə bərabər eynəyinin arxasında parlayan gözlərinin dərinliyində həm də bir həyəcan hiss etdim. Hər halda mənə elə gəldi. Səhərə qədər digər tibb işçiləri ilə yanaşı o da məni nəzarətsiz qoymadı. Ertəsi gün atəşim bir qədər düşmüşdü, amma vəziyyətim heç də yaxşı deyildi. Buna baxmayaraq, gecə gözümü açarkən başımın üstündə ilk gördüyüm, mehriban çöhrəsi ilə yaddaşıma həkk olunmuş o mələyə bənzər qızı soruşdum. Gecə növbəsinin həkimi Aygün İsmayılovanın olduğunu söylədilər.

Günlər keçdikcə yaxşılığa doğru gedirdim. Aygün xanımın "Sizdən də ağır xəstələrimiz olub, sağalıblar, siz də sağalacaqsınız" sözləri tez-tez yadıma düşürdü.

Bir gün müalicə olunduğum 8-ci korpusu təmir etmək üçün boşaltdılar. Xəstələri 19-cu korpusa köçürdülər. 2-ci mərtəbənin 44-cü palatasında idim. Xoşbəxtlikdən Aygün də həmin binanın 1-ci mərtəbəsindəki şöbəyə keçirilmişdi. O şöbənin xəstələri daha ağır idilər. Buna baxmayaraq, Aygün hər gün işə bir qədər tez gəlir, lap 5 dəqiqəlik də olsa mənə baş çəkir, vəziyyətimlə maraqlanır, mənə ürək-dirək verirdi.

Evə getməyimə bir gün qalmışdı. İşdən öncə mənə baş çəkməyə gələn Aygün əhvalımı yaxşı görüb sevindi. Onu görəndə mən də sevinirdim. Çünki ona çox isnişmişdim. Aygün, dedim. İlk gördüyüm gündən səni çox sevdim. Lap doğmam kimi. Artıq sağalıb evə gedirəm. Ürəyimdə dolaşan bir sualım var. Necə oldu ki, belə bir xəstəxanada işləməyə qərar verdin? O, məyus-məyus üzümə baxdı, gözləri nəmləndi.

Aygün ötən ilin noyabrında atasının COVİD-19 virusuna yoluxduğunu, vəziyyətinin ağır olduğu üçün bu xəstəxanada yerləşdirildiyini söylədi. Valideynin yanında qalmaq, ona dəstək olmaq üçün özü də burada işə düzəlir. Bu xəstəlik barədə dərin biliyi və təcrübəsi olmadığına görə tibb bacısı vəzifəsində çalışır. Lakin şəkərli diabet və xroniki böyrək çatışmazlığı kimi yanaşı xəstəlikləri olduğu üçün, həkimlərin bütün səylərinə baxmayaraq, onun valideyninin həyatını xilas etmək mümkün olmur. 2020-ci il dekabrın 4-də Ramil müəllim dünyasını dəyişir. Aygün isə işini tərk edir. Lakin çox çəkmir ki, dünyanı lərzəyə gətirmiş bu qorxunc xəstəliklə mübarizədə ön cəbhədə olmaq, xalqı, milləti qarşısında vətəndaşlıq borcunu yerinə yetirmək üçün yenidən bu xəstəxanaya qayıdır. Atasına edə bilmədiyi yardımı ona ehtiyacı olan xəstələrə etməyə çalışır. Özünün yaşadığı acını, doğmalarının yolunu gözləyən yüzlərlə Aygünlərə qıymır.

Aygünü dinlədikcə ürəyim dağa döndü. Bu qızın nə böyük ürəyi varmış, deyə düşündüm. Bir başqası bəlkə də atasının dünyasını dəyişdiyi bu xəstəxananın heç həndəvərindən belə keçməzdi. Onun isə hər bir xəstəni xilas etmək üçün necə fədakarlıq göstərdiyinin şahidi olmuşam. Halal olsun sənə dedim. Gələcəkdə daha bacarıqlı və mükəmməl həkim olacağına heç bir şübhəm yoxdur. Yolun açıq, arzuların çin olsun, Aygün!

Aygün xanım və onun şəxsində COVİD-19 virusundan müalicə olunduğum FHN-in Mərkəzi Modul tipli hospitalında çalışan ATU-nun Müalicə işi fakültəsinin məzunu, 2019-cu ildən ADHTİ-nin Otorinolarinqologiya həkim-rezidenti kimi fəaliyyət göstərən, 2020-ci ildən FHN-də COVİD-19-la işləyən Möhübbət İsmayılovun, 2018-ci ildə ATU-nin Müalicə işi fakültəsinin məzunu olan Gülnar Yusiflinin, gecə növbəsində çalışan həkim Samirə Mənsurovanın, orta tibb işçiləri Elgün, Nailə, xəstə baxıcısı Günay xanım və adlarını bilmədiyim bir çoxlarının öz vəzifə borclarını necə fədakarlıqla yerinə yetirdiklərini söyləyərək, onların hər birinə təşəkkür etməyi özümə borc bilirəm.

**Babaşova Solmaz,**
**BDU-nun əməkdaşı**

## Səmərəsi yoxdur

### İcra hakimiyyətləri ləğv olunmalıdır



**Parlamentin Regional məsələlər komitəsinin sədri Səyavuş Novruzov icra başçılarını tənqid edib.**

S.Novruzov bildirib ki, bəzi icra başçıları vəzifəsinə başlayan kimi imtahanla dövlət qulluğuna qəbul olunanları işindən azad edir: "İcra başçısı gələn kimi test və müsahibə üsulu ilə imtahandan keçən şəxsə deyir ki, ərizəni yaz, get. Nəticə etibarı ilə illərdir yetişən kadr bazasını kimlərinsə iradəsinin ifadəsinin uyğun olaraq itiririk. Nazirliklərdə, komitələrdə də biz bu halları görürük".

Komitə sədrinin sözlərinə görə, icra başçıları özü ilə adamlarını gətirir və digərlərini vəzifəsindən azad edir.

**Məsələ ilə bağlı "Şərq"ə açıqlama verən Azərbaycan Yüksəliş Partiyasının sədri Anar Əsədlinin sözlərinə görə, sevindirici haldır ki, S.Novruzov 27 ildir qulluq etdiyi hakimiyyətin rüşvətə və korrupsiyaya bulaşmış kadrları haqqında danışmağa başlayıb:** "İllərdir deyirik ki, Azərbaycanda xüsusilə icra strukturları barədə məsələ köklü şəkildə həllini tapmalıdır. Bunun da alternativi ölkədə azad və ədalətli bələdiyyə seçkilərinin keçirilməsi, bələdiyyələrə xüsusi və özəl statusların verilməsidir. Bu olarsa, ölkədə icra başçısı institutu sisteminə ehtiyac olmayacaq. Sadəcə, Prezidentin yerlərdə nümayəndələri ola bilər, bu da işğaldan azad edilmiş torpaqlarımızda yaradıldı. Bir sözlə, azad bələdiyyə seçkilərinin keçirilməsi icra strukturundakı neqativ halların aradan qalxmasına kömək edəcək. Ümumiyyətlə, ölkədə icra hakimiyyətləri birdəfəlik ləğv edilməlidir!".

**Yeganə Bayramova**

# Kredit üçün təkcə gənclər müraciət etmir

"Ölkəmizdə faizlər yüksək olduğundan hər kəs çalışır ki, ipoteka kreditindən yararlansın"

## "Sadəcə Bakı şəhərində 300 mindən çox ailə kirayədə yaşayır"




İpoteka və Kredit Zəmanət Fondu tərəfindən verilmiş ipoteka kreditlərinin sayı və məbləği açıqlanıb. Məlumata görə, 2021-ci ilin əvvəlindən iyun ayının 1-nə fond 2 541 borcalana 170,1 milyon manata qədər ipoteka krediti verib.

Ümumilikdə isə bu günə qədər fond 34 min borcalana 1 milyard 810,2 milyon manat məbləğində ipoteka krediti verib. Təkcə may ayında isə 648 borcalan 37,6 milyon manat məbləğində kredit əldə edib.

Fondun məlumatına görə, zəmanət və subsidiya mexanizmi ilə 231 milyon 270 min manat məbləğində kredit maliyyələşdirilib.

Vətəndaşlar 2020-ci ilin mart ayından etibarən yaşayış sahələrinin satmaq öhdəliyi ilə kirayəyə verilməsi mexanizmi üzrə müraciət etməyə başlayıb və ümumi 822 mənzil satmaq öhdəliyi kirayəçilərin istifadəsinə verilib.

**Mövzu barədə "Şərq"ə danışan iqtisadçı-alim Nazim Bəydəmirli bildirib ki, ipoteka kreditləri az faizli olduğu üçün ona tələbat çoxdur:** "Sadəcə Bakı şəhərində 300 mindən çox ailə kirayədə yaşayır. Bu baxımdan kreditlər üçün təkcə gənclər müraciət etmir. Lakin ölkəmizdə faizlər yüksək olduğundan hər kəs çalışır ki, ipoteka kreditindən yararlansın. Bu kredit dövlət büdcəsi tərəfindən dəstəklənir".

**İqtisadçının sözlərinə görə, ölkəmizdə kredit faizləri baha olduğuna görə, tələb-təklif qarşılanmadığı üçün xoşagəlməz hallar baş verir:** "Adətən bank işçiləri özlərinə yaxın olan adamlara ipoteka kreditləri üçün şərait yaradırlar. Məsələn, sonradan bəlli oldu ki, sosial mənzillər bahadır. Ona görə də artıq kommersiya mənzilləri qiymətinə satılır. Sosial mənzil layihəsi də ipoteka krediti kimi vətəndaşların istəyini qarşılamadı. Həmçinin son bir neçə il ərzində neftin qiyməti ilə bağlı dövlət büdcəsinin gəlirləri azaldığı dövrdə ölkəmiz dəstək proqramlarını azaldır. Ona görə vəziyyət xoşagələn deyil. Çıxış yolu isə böyük xarici bankların Azərbaycanda işləməsinə şərait yaratmaq, iqtisadiyyatda inhisarçılığın ləğvi və ipoteka institutunun inkişaf etdirilməsidir. Təəssüf ki, Azərbaycan hökumətinin investisiyalarla bağlı siyasəti məmur sahibkarlığına xidmət edir. İqtisadi sahələrdə olan bütün problemlərimiz məmur sahibkarlığından qaynaqlanır. Təbii ki, bunun aradan qaldırılması siyasi iradədən asılıdır. Ümid edək ki, bu baş verəcək".

**Yeganə Bayramova**

# Xalq artisti Elgiz Əkbəri təhqir edib

*“Anam qəzeti oxuyub ağlayıb, atamın halı pisləşib. Bəlkə də atam dünyasını dəyişməsəydi, indi belə pis olmazdım”*



"İnsan çalışırsa, onun işinə fikir bildirən, tənqid edən olmalıdır. Lakin təhqir etmək olmaz".

**”Şərq” xəbər verir ki, bu sözləri ”Onun sirri” proqramında aparıcı Elgiz Əkbər ona bir vaxt ”eybəcər” deyən xalq artisti haqda söyləyib. O ad çəkməsə də, bunları əlavə edib:** ”Həmin adam qəzetə haqqımda müsahibə verir və məni yıxıb-sürüyür. Mənim də xəbərim yoxdur. Biri də söyləmir ki, çox dəyərli xalq artisti səninlə bağlı belə danışıb. Qonşumuzda Ruqiyyə adlı jurnalist qız yaşayırdı. Bir gün anamla atam evdə oturublar. Həmin Ruqiyyə bizə gəlir, deyir ki, çox üzülmüşəm. Anam söyləyir ki, nə olub, qızım? Qayıdıb ki, sizin oğlunuz haqda xalq artisti qəzetə danışıb, o uşağı nə günə qoyub. Anam təəccüblənib. Sonra Ruqiyyə qəzeti anama verib. Atamla birgə qəzeti oxuyublar.

Anam ağlayıb, atamın halı pisləşib. Bəlkə də atam dünyasını dəyişməsəydi, indi belə pis olmazdım. Atam deyib ki, xalq artistini tapmağa gedirəm. Onun bir dostu var, Cəfər Cabbarlı adına Azərbaycan Kinostudiyasında sürücü olub.

Atam həmin adamı tapmaq üçün dostu ilə danışıb. O da ağıllı insandır, atama məsləhət verib ki, bu işə qarışmasın. Mən də o xalq artistinə cavab vermədim.

Aparıcılıq qabiliyyətimi bəyənməyə bilərsiniz. Bəs niyə məni təhqir edirsiniz? Sonda deyib ki, elə eybəcər efirdə ola bilməz. Dəhşətə gəldim, çünki bu insanla görüşəndə söhbət edirdik. O vaxt mənim işlədiyim müəssisə ilə əməkdaşlıq edirdi. Biz tez-tez rastlaşırdıq”.

**E.Əkbər sözügedən xalq artistinin oğlunun dünyasını dəyişdiyini söyləyib:** ”Onun oğlunu çox gözəl tanıyırdım. Atamın adından cavab müsahibəsi hazırlatdırardım. Amma etmədim. Onun oğlu çox gənc yaşda ölüb. Oğlunu itirən bir ataya mənim cavabım ağrı verərdi. Valideynlərimi sakitləşdirdim. Sonra qəzeti gətirəni çağırdım, dedim, sən hansı məqsədlə bunu etmisən? Nə ixtiyarla valideynlərimə o qəzeti vermisən? Onun məqsədini də başa düşdüm. Bunlar beş il əvvəl baş verib. Yenə də qəlbimdə yaradır. Onun müsahibəsindən xəbərim yoxkən Kübra Əliyevanın oğlunun yasına getdim. Biz bununla eyni vaxtda gəldik. Gəldim dayandım, başsağlığı verirdim. Gördüm budur. Həmişə mənimlə hal-əhval tutan insan yanımdan düz keçdi”.

**Samirə**



## “Sevgili deyilik..."

Nadir Qafarzadə: “Mənim Ayan yaşda oğlum var”

**Uzun müddətdir ki, müğənnilər Nadir Qafarzadə və Ayan Babakişiyeva arasında sevgi münasibətlərinin olduğu söylənilir.**

*”Şərq” xəbər verir ki, N.Qafarzadə ”MTV Azərbaycan”a açıqlamasında bu iddialara aydınlıq gətirib. Sənətçi mövzu ilə əlaqədar bunları deyib:* ”Gənc ifaçılardan Ayanla duet oxumuşam. Başqa müğənnilərlə də mahnı ifa etmişəm. Karifey sənətkarlarla da duetlərim olub. Ona görə biz bir-birimizi sənət dostu kimi görürük. Ayan mənim qızım yerindədir. Onun ailəsini tanıyıram, qızına balam deyirəm. Münasibətlərimiz isti ola bilər. Onu bağrıma da basa bilərəm. O demək deyil ki, sevgilimdir. Mənim Ayan yaşda oğlum var. Bu mənə yaraşmaz. Hətta yaraşsa da, xalqın qızına pis gözlə baxa bilmərəm”.

**Samirə**

## “Yoxa lənət, nə tapmışamsa, bişirmişəm"

Elnarə: “Həyat yoldaşım həmişə deyir ki, sənin yerində kim olsa, deyinərdi”



**Müğənni Elnarə Xəlilova ”Söz baz” verilişində həyatı ilə bağlı açıqlamalar verib.**

*”Şərq”in məlumatına görə, o, yoxsulluq çəkdiyi günlərin olduğunu söyləyib:* ”Əhvalımı pozmamışam. Nə tapmışamsa, bişirmişəm. Hardasa 10-15 gün idarə etmişəm, qəfildən ruzi gəlib. Allah səbr edənləri sevir. Həyat yoldaşım həmişə deyir ki, sənin yerində kim olsa, deyinərdi. Söyləyir ki, səsini də çıxartmırsan. Qayıtdım ki, tələb etsəm, nə olacaq? Gedib, oğurluq edəcəksən? Yoxa lənət. Bu gün yoxdur, sabah var. Bizim ailəmizi dostluğumuz saxladı”.

**Samirə**

## Oksana oğlu ilə fotolarını paylaşıb

“Allah hər qadına ana olmağı nəsib etsin”



**Tanınmış rəqqasə, aktrisa Oksana Rəsulova oğlu Osman ilə yeni fotolarını paylaşıb.**

”Şərq” xəbər verir ki, sənətçi paylaşıma bu sözləri də əlavə edib: ”Allah hər qadına ana olmağı nəsib etsin. Uşaqlar bizim həyatımızın önəmli bir parçasıdır, onları sevmək, bəsləmək lazımdır. Lakin qədərində”.

**Oksana həmçinin Əbu Turxandan da sitat gətirib:** ”Qadın üçün keçmişin xatirələri və gələcək haqqında xəyallar önəmlidir. Amma onu hərəkətə gətirən bu günün duyğularıdır”.

**Samirə**

# Zülfiyyə Xanbabayeva tənqidlərə də alışıb

*Sosial şəbəkələr artıq Xalq artistinin həyatının bir parçasına çevrilib*



"Sosial şəbəkələrə yavaş-yavaş alışdım. Asılı olmadım, amma artıq işimin bir parçasına çevrildiyi üçün zamanla ayaqlaşdım".

**”Şərq” xəbər verir ki, bu sözləri instaqramda Xalq artisti Zülfiyyə Xanbabayeva yazıb. O, fikirlərinə bunları da əlavə edib:** ”On beş-iyirmi il öncə tamaşaçılar bizi yalnız televiziyada görürdülər, şərhlərin yazılmasına tribuna yox idi. Zamanla rəylərə də alışdım. Tənqidlərdən nəticə çıxarmağa çalışdım, amma təhqiri qəbul etmədim, qəbul etməyəcəm! Bunları təkcə özüm üçün yox, özümü başqa sənət yoldaşlarımın yerinə qoyaraq yazıram. Biz müğənnilərin həyatı şəkillərdə görməyə alışdığınız kimi, hər zaman gözqamaşdıran və parlaq olmur. Bizim də problemlərimiz, ”Nə edim? Necə edim?” düşünərək çarəsiz qaldığımız zamanlar olur. Lakin biz sizin qarşınıza hər zaman pozitiv, gümrah, gözəl çıxmağa çalışırıq. Çünki bu bizim işimizdir! Ən xoşbəxt və ya ən kədərli anlarınızda mahnılarımızla sizə həmdəm olmağımız da bizim işimizdir. Əlbəttə, səhvlərimiz də olur, heyif ki, göz qabağında olduğumuzdan o səhvlər bağışlanmır. Sizin dəstəyinizi ummağımız məncə, çox təbiidir. Yazdıqlarım mənim instaqram dostlarıma aid deyil, əsla! Hamı sizin qədər sevgi paylaşmır. Sadəcə, sosial şəbəkələrdəki ab-havanı müşahidə edib, dərdləşdim sizinlə. Ürəyimdən gəldi”.

**Samirə**

## Rusiyada güllələnən şəxs Nazilənin yaxınıdır

Vəkilin nəşi Borçalıya yola salınıb



**Tanınmış şairə Nazilə Səfərli bir neçə gün öncə Rusiyada polis tərəfindən güllələnərək vəfat edən 19 yaşlı Vəkil Abdullayevdən yazıb.**

”Şərq” xəbər verir ki, o, mərhumu tanıdığını söyləyib: ”Dostlar, bu, arzuları yarım qalan gənc eloğlumdur. Vəkilin babası atamla bir sinifdə oxuyub. Hamımız pərişanıq. Vəkilin nəşini Borçalıya yola saldılar. Heyif səndən, qardaş. Toy karvanın, vida karvanı oldu. Nahaq qan yerdə qalmasın! Atam dəfndə iştirak edəcək. V.Abdullayevin doğmalarına baş sağlığı verirəm”.

**Samirə**

## “Söz üçün cibə girirlər”

Çingiz Əhmədov futbol şərhçilərini bəyənmir



**Əməkdar artist Çingiz Əhmədov ”Hüseynova bacıları” proqramındakı açıqlaması ilə diqqət çəkib.**

”Şərq” xəbər verir ki, aktyor futbol şərhçilərinə irad bildirib: ”Futbol şərhçilərini bəyənmirəm. Söz üçün cibə girirlər. Futbol oyunu danışmaq lazımdır. Belə insanlar cılızlaşıb. Sənətdə də belədir”.

**Samirə**

# "Qara göbələk" Türkiyənin sərhədlərinə yaxınlaşdı

*Xəstəni xilas etməyin yeganə yolu gözünü çıxarmaqdır*



(Əvvəli səh: 16-da)

BBC-yə danışan həkimlər, qara göbələk infeksiyasının koronavirus xəstələrində sağalmadan 12-18 gün sonra meydana gəldiyini bildiriblər.

Onlar bu səbəbdən xəstələrin müalicəsi üçün yaradılan yeni mərkəzlərin sürətlə dolduğunu söyləyiblər. Qeyd olunub ki, belə xəstələrin 80 faizinin təcili əməliyyata ehtiyacı var. Bundan başqa daha bir qorxunc xəbərlər Türkiyənin cənub-şərq qonşusu olan İraqdan gəlib. İraqın cənubundakı Zikar vilayətinin baş direktoru Səddam Et-Tavil yerli mətbuata verdiyi açıqlamasında mərkəz Nəsiriyada ölən bir insanda qara göbələk infeksiyası aşkar edildiyini deyib. O, həmin infeksiyanın ölümcül və qalıcı deformasiyalara səbəb olduğunu da vurğulayıb: "Bu infeksiyanın artım nisbəti onun "təhlükəli bir epidemiya" səviyyəsinə çatma riskini artırır. Xəstəliyin simptomları arasında qaralma və ya rəng dəyişikliyi, bulanıq və ya ikiqat görmə, sinə ağrısı, tənəffüs çətinliyi və qanla öskürək müşahidə olunur. Hətta bu xəstəlikdən 20 yaşlarında hər iki gözünü itirən xəstələr də var".

O bildirib ki, qara göbələk xəstəliyi çox nadirdir: "Qara göbələk sinuslara, beyinə və ağ ciyərlərə təsir edir. Qara göbələk infeksiyası şəkərli diabet xəstələrində və ya xərçəng xəstələrinin həyatı üçün çox təhlükəlidir". Doktor Aksa Nair Vankhede isə bildirib ki, xəstələrin həyatını xilas etmək üçün yeganə seçim insanların gözünü çıxarmaqdır. Çünki əgər sinirləri və göz qapaqları da daxil olmaqla bütün toxumaları çıxarmazsa, infeksiya beyinə soxula bilər. Bu vəziyyətdə xəstələrin həyatını xilas etmək qeyri-mümkündür".

**Aynurə Pənahqızı**

## 3 həftə kanalizasiya borusunda yaşayıb

Xilasedicilər qadının xilas edilməsi görüntülərini yayımlayıb

*(Əvvəli səh: 16-da)*



**"Nyu-York Post" yazır ki, qadının ailəsi onun mobil telefonundan istifadə edərək harada olduğunu öyrənə biliblər.**

Qadının yaxınları onu təqib etmək üçün ətrafdakı kanalizasiya qapaqlarının ətrafına ərzaq, müxtəlif qida məhsulları qoyublar. Bununla Lindsinin o qapaqlardan kanalizasiya kanalına, ya da tunelə girib-girmədiyini müəyyənləşdirmək istəyiblər. Yerli media yazır ki, L.Kennedi xəstəxanada psixiatrik müşahidə altında tutulurmuş. Ailəsi Lindsinin illərlə bir nəfərlə istismarçı münasibət içində olduğundan psixoz və psixi travma alıb, stres pozğunluğu yaşayıb. Mart ayında yoldan ötənlər kanalizasiya borusundan çığırtı səsləri gəldiyini fərq edib, yardım çağırıblar. Hadisə yerinə gələn xilasedicilər 43 yaşlı qadını 2,5 metr dərinliyində kanalizasiya kanalından çıxarıblar. Kennedi polisə deyib ki, münasibətdə olduğu dostunun evinin yaxınlığındakı kanalda üzməyə gedib, 3 martdan bəri kanalizasiya sistemində ilişib qalıb, ordan çıxa bilməyib. Bir tunel görüb, ora baxmaq üçün o tərəfə üzüb, lakin sonra azdığını başa düşüb. Məlum olub ki, Lindsi 3 həftə ərzində kanalizasiya kanalının içiylə dolaşırmış. Polis raporunda L.Kennedinin qəribə davranışlar sərgilədiyi, narkotik maddə təsiri altında olduğu zamanlarda gözlənilməz qərarlar verdiyi qeyd edilir. Qadının anası da qızının əqli problemləri olduğunu, keçmişdə uyuşdurucu maddə qəbul etdiyini deyib. Xilasedicilər qadının xilas edilməsi görüntülərini yayımlayıb. Lakin qadın çılpaq olduğundan üzəri ağ mələfə ilə örtülüb. Bu halda belə onun çirkaba batmış olduğu bilinir. Polis rəyində eyni zamanda bildirilir ki, qadının kiminsə tərəfindən kanalizasiya borusuna girməyə təhrik edildiyinə dair sübutlar yoxdur. Böyük ehtimalla qadın öz istəyi ilə - psixi problemlər üzündən kanalizasiya borularına daxil olur.

**Məlahət**

## Azercell şəhid övladları üçün sosial layihə keçirib




**Azercell-in dəstəyilə 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi günü münasibətilə "Kiçik Ürəklərdə Böyük Xatirələr" adlı sosial layihə çərçivəsində 300-dən çox şəhid övladının anası ilə birgə iştirakı ilə onlayn təlimlər keçirilib.**

44 günlük Vətən müharibəsində torpaqların azadlığı uğrunda canından keçən cəsur hərbçilərin ailə üzvləri üçün art terapiya yolu ilə psixoloji təlimlər təşkil olunub. "Arzular ağacı" təlimləri mərhələsində uşaqlara və onların valideynlərinə psixoloji yardım göstərilib. Peşəkar psixoloqlar onlara emosional problemlərinin öhdəsindən gəlməyə kömək ediblər. Azercell-in "GİD CSR Consulting" şirkəti ilə birgə əməkdaşlığı çərçivəsində baş tutan "Kiçik Ürəklərdə Böyük Xatirələr" layihəsinin növbəti mərhələsi kimi isə təlimlərdə qonaq qismində tanınmış şəxslərin iştirakı nəzərdə tutulub. Onlar öz uğur hekayələrini bölüşməklə, bu yolda üzləşdikləri çətinliklərin öhdəsindən necə gəldikləri barədə danışacaqlar. Təlimlər zamanı böyük psixoloji stress keçirmiş uşaq və onların valideynlərinin emosional durumu üzə çıxarılıb, onların yaşadıqlarını sənət yolu ilə ifadə etməsinə imkan yaradılıb. Uşaqlar rəsm sənət növündən istifadə edərək hisslərini kağıza köçürüblər. Həm uşaqlar, həm də böyüklər üçün faydalı olan art terapiya uşaqların daxili dünyasını açmağa, həm də gizli bacarıqlarını üzə çıxarmağa yardımçı olub. "Kiçik Ürəklərdə Böyük Xatirələr" layihəsi çərçivəsində keçirilən görüşlər zamanı şəhid övladları qəhrəman ataları haqqında xatirələrini də səsləndiriblər. Layihənin yekunu olaraq tezliklə uşaqların qəhrəman ataları haqqında ən gözəl xatirələrindən ibarət kitab həm rəqəmsal, həm də çap formatda hazırlanıb nəşr ediləcək. Kitabın elektron versiyasını "Bookmate" mobil tətbiqindən də oxumaq mümkün olacaq. Eyni zamanda, Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi günü münasibətilə keçirilən tədbir çərçivəsində də Azercell şirkəti aprel döyüşləri şəhidlərinin və telekommunikasiya sahəsində çalışmış və II Qarabağ müharibəsində Vətən uğrunda həyatını qurban etmiş şəhidlərin övladlarını təbrik edib, hədiyyələr verib.

## Görülən işlər nəticə verir

*Uşaq nikahlarının sayı 10 dəfə azalıb*



"Azərbaycanda əvvəllər erkən nikahlara ən çox cənub bölgəsində rast gəlinirdi"

Uşaq nikahlarının sayı son 10 il ərzində 10 dəfə aşağı düşüb. Bu barədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi günü ilə bağlı danışarkən bildirib:

"Yalnız bir gün deyil, hər gün uşaqların günüdür. Azərbaycanda bütün sahələrdə uşaq hüquqlarının təmin edilməsi istiqamətində mühüm siyasət aparılır. Təəssüf ki, mənfi nəticələrlə də üzləşirik. Bütün dünya ölkələrində olduğu kimi Azərbaycanda da uşaqların intiharı hadisəsi, ailədə azyaşlılara qarşı zorakılıq faktları, orta təhsil müəssisələrində uşaqların bir-birinə qarşı zorakılığı, o cümlədən erkən yaşda uşaqların nikaha cəlb edilməsi qeydə alınır. Buna baxmayaraq, müsbət haldır ki, son 10 il ərzində Azərbaycanda uşaq nikahlarının sayı 10 dəfə aşağı düşüb: yəni 4 mindən 350-360-a düşüb".

**Erkən nikahların azalması səbəbləri barədə "Ailə Dünyası" Ailələrə Hüquqi Yardım İctimai Birliyinin sədri Gülayə Səfərova "Şərq"ə danışıb. O vurğulayıb ki, Azərbaycanda əvvəllər erkən nikahlara ən çox cənub bölgəsində rast gəlinirdi:** "Bilirik ki, erkən nikah faktlarına daha çox rayonlarda rast gəlinir. Sevindirici haldır ki, son illər ərzində belə nikahların sayında azalma müşahidə olunmaqdadır. Təbii ki, bunun qarşısının alınması üçün dövlət tərəfindən daim müəyyən addımlar atılıb. Qeyd edim ki, əvvəllər rəsmi nikahları olmayan şəxslər dini nikah ilə ailə qururdular. Ona görə də bu barədə din xadimlərinə bildirildi ki, rəsmi nikah olmayan şəxslər dini nikaha girə bilməzlər. Həmçinin daim rayon məktəblərində yeniyetmələr arasında maarifləndirmə işləri də aparılmaqdadır. Bundan başqa yerli polis şöbələri yerlərdə çox ciddi işlər görür və dərhal belə halların qarşısı alınır. Bütün görülən işlərin nəticəsidir ki, bu günləri erkən nikahlarda azalmalar var".

**Aynurə Pənahqızı**

## "Nar" şəhid və qazi ailələrindən olan uşaqlar arasında keçirilən yarışa dəstək oldu




**"Nar" 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə şəhid və qazi ailələrindən olan uşaqlar arasında keçirilən "Qəhrəman övladları" yarışına dəstək oldu. "Həmrəy ol, qalib ol" İctimai Birliyinin təşkilatçılığı ilə reallaşan layihənin məqsədi qəhrəman övladlarının həyat tərzini istiqamətləndirmək, fiziki və psixi sağlamlıqlarını inkişaf etdirmək, onların bacarıqlarını ortaya çıxarmaq və idmana olan marağını artırmaqdır.**

Şəhid və qazi ailəsindən olan 16 uşağın iştirakı ilə keçirilən estafet yarışması Qəbələ Şəhər Stadionunda açıq havada baş tutub. Qalib gələn qəhrəman övladları "Nar" tərəfindən mükafatlandırılıb.

*Qeyd edək ki, şəhid və qazi ailələrinə xüsusi diqqətin göstərilməsi "Nar"ın sosial layihələrinin əsas istiqamətlərindən biridir. Mobil operator şəhid və qazi alilələrinin sosial qayğı ilə əhatə olunmasını daim diqqət mərkəzində saxlayacaq.*

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şeymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 980



# "Qara göbələk" Türkiyənin sərhədlərinə yaxınlaşdı

## Xəstəni xilas etməyin yeganə yolu gözünü çıxarmaqdır

**Koronavirus pandemiyası ilə fəlakət yaşayan Hindistan ölkədə sürətlə yayılan və ölümcül "qara göbələk" xəstəliyi ilə əlaqədar daha çətin vəziyyətə düşüb.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, nadir görülən bu infeksiyanın ölüm riskinin 50 faiz olduğu qeyd edilib. Bildirilib ki, həmin infeksiyadan hazırda Hindistanda minlərlə insan əziyyət çəkməkdədir. Həkimlər bunun "COVİD"in müalicəsində istifadə edilən steroidlərlə əlaqəli olduğunu söyləyirlər.

*(Davamı səh: 15-də)*

**Aynurə**

# Balaca dahilər...

## 2 və 4 yaşlı uşaq zəkaları ilə təəccübləndirir








**İngiltərədə hind əsilli 4 yaşlı Dayal Kaur və ABŞ-dakı 2 yaşlı Kaşe Quest zəkaları ilə təəccübləndirib.**

"Şərq" "Sabah.com"a istinadən xəbər verir ki, Dayal Mensa testində məşhur alim Albert Eynşteynin 142 bal göstəricisindən cəmi 18 bal az toplaya bilib. 4 yaşında olan Dayal günəş sistemindəki bütün planetlərin adlarını bilir və 5 yaşlı bir uşağın riyazi biliklərinə sahibdir.

Los-Ancelesdə yaşayan Kaşe isə dünyanın ən kiçik yaşlı dahisi olub. Kaşe 146 IQ və üstün zəkası ilə dünyanın ən gənc Mensa Klub üzvü seçilib. Aparılan testlərə görə, Kaşe ABŞ-dakı bütün 50 əyaləti şəkillərinə və yerlərinə qədər tanıyır, həmçinin işarə dilində 50 işarəni başa düşür.

**Yeganə**

# Bred Pitt məşhur müğənni ilə eşq yaşayır





**57 yaşlı Hollivud ulduzu Bred Pitt amerikalı 36 yaşlı məşhur müğənni-aktrisa Andra Deylə münasibətə başlayıb. Axşam.az xəbər verir ki, bu barədə cütlüyə yaxın mənbələrdən biri "Mirror" nəşrinə müsahibəsində deyib.**

Onun sözlərinə görə, "Oskar 2021" mükfatlandırma mərasimi zamanı Bred və Andra kulisdə səmimi davranışları ilə diqqət çəkiblər. Daha sonra onlar biri-birinə mobil nömrələrini veriblər.

*Qeyd edək ki, bir neçə gün əvvəl Bred Pittlə keçmiş həyat yoldaşı Ancelina Coli arasındakı övladlarına görə 5 ildir davam edən məhkəmə prosesi başa çatıb. Məhkəmənin qərarına əsasən, Bred Coliyə qalib gəlib. Aktyorlar uşaqlar üzərində bərabər hüquq qazanıblar.*

*Xatırladaq ki, cütlüyün 6 övladı var. Onlardan üçünü aktyorlar övladlığa götürüb, digər üçü isə biolojidir.*





# Qəsəbəyə kişilərin daxil olması yasaqdır

## *Burada təxminən 20-35 yaş aralığında 600 qadın yaşayır*





**Braziliyanın Noiva do Cordeiro qəsəbəsi dünyanın ən maraqlı məkanlarından biridir.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, bu qəsəbə bir çox özəlliyə sahibdir. Burada təxminən 20-35 yaş aralığında 600 qadın yaşayır. Həftə sonları istisna olmaqla kişilərin bu qəsəbəyə girməsinə icazə verilmir. Evli olan qadınların həyat yoldaşları və 18 yaşdan yuxarı oğlanları şəhər xaricində işləyirlər və orada yaşayırlar. Bu qəsəbədə bütün qərarlar qadınlar tərəfindən verilir. Yəni əkinçilikdən tutmuş şəhər planlanmasına qədər hər şey qadınlar vasitəsilə icra olunur. Bu yolla qadınlar kişilərsiz şəhərlərin daha gözəl və nizamlı olduğunu iddia edirlər. Hər şeyi birlikdə planlayan və bütün işlərini bir-birilə paylaşan qadınlar burada rəqabətin olmadığını və hər kəsin bir-biri ilə yaxşı uyğunlaşdığını bildirirlər.

*Qeyd edək ki, qəsəbənin yaranma tarixi 1891-ci ildən başlayır. 1891-ci ildə Maria Senhorinha de Lima zorla evləndiyi adamı tərk edir. Buna görə də, o, kəndlilər tərəfindən qovulur. Bundan sonra Mariya Senhorinha de Lima özü üçün yeni bir həyata başlamağa qərar verir. Ancaq getdiyi yerdə rahib qadınlara musiqi dinləməyi, hətta paltarlarına və saçlarına qadağalar qoyur. Həmin qəsəbədə qadınların ümumiyyətlə, danışmaq hüququ yox idi və kişilər nə desələr onları da etməli idilər. Lakin keşişin ölümündən sonra qadınlar həmin qəsəbədə suverenliyi ələ alırlar və o vaxtdan bəri onlar kişiləri bu qəsəbəyə buraxmırlar. Qeyd edək ki, bu qəsəbəyə evlənmək üçün gələn kişilər qəsəbənin qaydalarını mütləq qəbul etməlidirlər.*

**Aynurə Pənahqızı**

# 3 həftə kanalizasiya borusunda yaşayıb

## Xilasedicilər qadının xilas edilməsi görüntülərini yayımlayıb





**6 metrlik kanalizasiya borusundan çılpaq halda tapılan qadın xəstəxanaya aparılıb.**

Qadını kanalizasiya borusunun içində aşkarlayan polis əməkdaşları heyrətlərini gizlədə bilməyiblər. Lakin daha heyrətlisi qadının anasının dedikləri olub. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, bu hadisə hazırda ABŞ-da ən çox müzakirə edilən mövzudur. 43 yaşlı Lindsi Kennedi 3 həftə ərzində axtarılıb. Nəhayət, Floridadakı kanalizasiya kanalında tapılıb. Qadın deyib ki, həftə sonu Texasda başqa bir kanalizasiya tunelinin içinə daxil olubmuş. Qadının yaxın dostu Brady Morgan isə deyib ki, onlar Lindsini yaxınlıqdakı kanalizasiya kanalına daxil olarkən görüblər.

**Məlahət**

*(Davamı səh: 15-də)*

# Məhkəməyə verib

## Haydi Klum atasının həbs olunmasını istəyir



**Almaniyalı məşhur model Haydi Klum atasını məhkəməyə verib.**

Axşam.az xəbər verir ki, buna səbəb isə atası Günterin Haydinin qızı Leninin adına marka patenti alması olub. Keçmiş model atasının 6 ay həbs olunmasını və ya 250 min avro (təxminən 519 min 625 manat) təzminat ödəməsini tələb edib.

*Qeyd edək ki, Haydi Klum 2019-cu ildə gitaraçı Tom Kaulitz ilə evləndikdən sonra atası ilə münasibətləri pozulmuşdu.*